

Milli azadlıqdan şirin nemət yoxdur!

# Dünya üçün mühüm platforma - Şuşa Qlobal Media Forumu



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
24 iyul 2024-cü il, çərşənbə
№ 130 (6716)
Qiyməti 60 qəpik

# Qarabağdan Ağ Evə mesaj...




Bax səh. 2

## Neokolonializmlə mübarizənin önündə...

Bax səh. 4

## Sülhün vaxtı çatsa da...



Bax səh. 3

## II Şuşa Qlobal Media Forumu dünya mətbuatının diqqətində

Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər, dünyanın müxtəlif ölkələrində jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar dünya mediasının diqqət mərkəzində olub.

Dünyanın nüfuzlu nəşrlərindən olan "Reuters" və "Politico" Prezident İlham Əliyevin Forumdakı çıxışında Fransanın müstəmləkə altında saxladığı ərazilərlə bağlı fikirlərinə geniş yer verib. Xəbərlərdə vurğulanıb ki, Prezident İlham Əliyev kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyini, Qəmər adaları, Mayot adası kimi ərazilərin hələ də kolonial idarəçilik altında olduqlarını deyib. Yazılarda dövlətimizin başçısının "Azərbaycan bu ölkələrə kömək etmək istəyir ki, onlar keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər", fikri də oxuculara çatdırılıb.

Dövlətimizin başçısının fikirləri Türkiyənin...

Bax səh. 5

## Bəzi ölkələrin COP saxtakarlığı ifşa edildi...



Bax səh. 3

## Yeni enerji platforması

Qlobal miqyasda, o cümlədən də Avrasiyada artan geosiyasi gərginliklər fonunda Xəzər - Qara dəniz hövzələri coğrafiyasında yerləşən Türkdilli ölkələr arasında genişlənən çoxtərəfli inteqrasiyanın perspektivləri kifayət qədər cəlbedici görünür. Türk dünyası geniş coğrafiya olmaqla yanaşı, həm də böyük iqtisadiyyat və zəngin resuslardır. Aydın şəkildə dərk olunur ki, bu coğrafiyada inteqrasiyanın dərinləşdirilməsi yalnız Türk Dövlətləri Təşkilatında (TDT) birləşən ölkələr üçün deyil, bütövlükdə Avrasiya regionu üçün müstəsna önəm daşıyır. Xüsusilə də son vaxtlarda Türkiyə, Azərbaycan və Mərkəzi Asiyada yerləşən Türk dövlətləri arasında müxtəlif spektrlər üzrə dinamik enerji dialoqu, qaz tədarükü və tranziti ilə bağlı razılaşmaların əldə olunması Avropa üçün müstəsna önəm daşıyır.

Rusiya ilə Ukrayna arasında məlum münaqişə başlayanadək Aropanın enerji təchizatı böyük dərəcədə şimal qonşumuzdan reallaşdırılan ixrac hesabına təmin olunurdu. Sonu görünməyən gərginliklər, o cümlədən də qarşılıqlı...

Bax səh. 4

## Minimum əmək haqqının artırılması...

Azərbaycanda minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər hazırlanır. Bu, "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı"nda öz əksini tapıb. Fəaliyyət planına əsasən, müvafiq dövlət qurumuna bu il noyabrın 1-dək minimum əməkhaqqının artırılması ilə bağlı təklifləri hazırlayaraq adiyyəti üzrə təqdim etmək tapşırılıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əməkhaqlarının artırılması, işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqqının məbləğinin yüksəldilərək xalis minimum əməkhaqqı ölçüsünün xalis orta aylıq əməkhaqqının nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulub.

Beləliklə, yuxarıda qeyd edilən strateji dövlət sənədlərindən irəli gələn tapşırıqların icrası ilə bağlı müvafiq orqan tərəfindən...

Bax səh. 6

## Vətənpərvərlik!

Azərbaycan gəncləri vətənpərvərdirlər. Bunu dəfələrlə öz əməlləri ilə sübut ediblər. Gənclər hərbi vətənpərvərliyi ilk öncə ailədə, valideynlərindən öyrənirlər. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Məlumdur ki, bu gün müasir gənclərin vətənpərvər ruhda yetişməsi üçün təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət düşür. Lakin vətənpərvərlik təkcə vətəni sevmək deyil. Vətənpərvərlik həm də vətənin naminə çalışmaq, vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir sevincinə, hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən təhsil üzrə ekspert Elşən Qafarov bildirib ki, vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən biri...

Bax səh. 6

## Serbiya Prezidentindən xəbərdarlıq

Sonu görünməyən Rusiya-Ukrayna müharibəsi region üçün ağır nəticələr verməkdədir. Son zamanlar döyüşlərdə Rusiya ordusunun üstünlüyünün artması ABŞ və Avropa İttifaqı, eləcə də NATO-nun Ukraynaya hərbi yardımlarının da çoxalması ilə bağlı yeni təşəbbüsləri meydana çıxarmaqdadır. Müharibə başlayandan rəsmi Kiyevə milyardlarla dollar hərbi yardım edilsə də, ötən ilin sonlarından hərbi yardımın azalması Ukrayna ordusunun cəbhədə uğursuzluğuna səbəb olub. Ona görə də mövcud şəraitdə NATO Kiyevə əlavə yardımlar üçün yeni variantlar axtarır.

ABŞ Konqresində fikir ayrılığına son qoyulması, Kiyevə silah yardımı ilə bağlı problemin aradan qalxması silah tədarükünün artmasına səbəb olub. Amma bu, hələ də Rusiya-Ukrayna cəbhəsində Kiyevin xeyrinə dəyişikliyə gətirib çıxarmayıb. Bu yaxınlarda NATO-nun ABŞ-da keçirilən yubiley sammitində də Ukraynaya hərbi dəstəyin gücləndirilməsi...

Bax səh. 7

## Avropa Sülh Fondu sülhə qarşı...



Bax səh. 5

# Dünya üçün mühüm platforma - Şuşa Qlobal Media Forumu

Mədəniyyət paytaxtımız Şuşanın qonaq-qaralı, çal-çağırlı günləri geri qayıdıb. Postmüharibə dövründə şəhərdə "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, Vaqif Poeziya Günləri bərpa olunub, bir neçə beynəlxalq idman tədbiri keçirilib. Bir qədər bundan əvvəl bütün Türk dünyasının nəbzi Şuşada döyündü - burada Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-formal Zirvə görüşü uğurla baş tutdu. Son olaraq isə iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.

## Azərbaycan Prezidentinin təşəbbüsü ilə əsası qoyulan ənənə

Hər bir azərbaycanlı kimi Prezident İlham Əliyev də ecazkar bir şəhər olan Şuşaya qəlbən bağlıdır. O, dəfələrlə hisslərini dilə gətirərək bildirib ki, adam Şuşaya gələndə buradan geri qayıtmaq istəmir. Dövlətimizin başçısının Şuşaya olan sonsuz bağlılığı və rəğbəti Onun göstərişləri əsasında şəhərdə postmüharibə dövründə dərhal başlayan və bu gün də intensiv şəkildə davam etdirilən genişmiyqaslı quruculuq-abadlıq işlərində təzahür edir. Prezident İlham Əliyev şəhərin tarixi simasının özünə qaytarılmasına güclü siyasi iradə göstərdiyi kimi, həm də onun ənənələrinin bərpası ilə bağlı göstərişlərini verib. Elə Şuşada Qlobal Media Forumunun keçirilməsi təşəbbüsü də dövlətimizin başçısından gəlib. "Mən xatırlayıram ki, ötən il məhz bu auditoriyada, məhz bu tarixdə mənim iştirakçılarla çox maraqlı söhbətim oldu və o vaxt mən arzumu bildirdim ki, bu forum bir ənənəyə çevrilsin və gördüyünüz kimi, bu tədbir artıq bir ənənəyə çevrilibdir", - deyə İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində bildirib.

Ötən il baş tutan 1-cu Şuşa Qlobal Media Forumu "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda keçirilib. Bu, qlobal və milli səviyyələrdə böyük aktuallıq daşıyan bir mövzudur. Yeni sənaye inqilabı innovativ texnologiyaların inkişafı ilə səciyyələnir. Transformasiyalar çox sürətlə gedir. İnternet dövrü informasiyaların alınmasını və ötürülməsini hədsiz dərəcədə asanlaşdırmaqla yanaşı, yeni çağırışlar da meydana gətirib. Qloballaşma şəraitində bu çağırışlar xüsusilə milli səviyyələrdə özünəməxsusluğun qorunması, dövlətlərin informasiya təhlükəsizliyinin təmin edilməsi kimi mühüm məqamları əhatə edir. Başlanğıc olsa da, 1-ci Şuşa Qlobal Media Forumu yaddaşlarda dərin iz buraxdı. Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlərə fərqli yanaşmalar ortaya qoyulub.



Ötən bir ildə dünyada Şuşa Qlobal Media Forumuna maraq artıb. Qeyd edək ki, budəfəki foruma 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun təmsilçiləri qatılıblar. Bütün bunlar ondan xəbər verir ki, Şuşa Qlobal Media Forumu artıq beynəlxalq səviyyədə mühüm bir platforma kimi qəbul olunur. Deyə bilərik ki, Forum iştirakçılar üçün birgə müzakirə və hərəkat platforması rolunu oynayır.

## Şuşadan dünyaya verilən mühüm mesajlar

Hər bir platformanın miqyası və önəmi orada müzakirələrə çıxarılan məsələlərin, verilən mesajların qlobal və milli müstəvilərdə aktuallığı ilə ölçülür. 1-ci Şuşa Qlobal Media Forumunun gündəliyi barədə yuxarıda bəhs etdik. Sayca 2-ci Forum isə "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilib. Bu da çox aktual mövzudur. Burada söhbət yalnız ayrı-ayrı media qurumlarının auditoriyalara ötürdükləri informasiyaların bir sıra hallarda doğru çıxmamasından və təsdiqlənməməsindən getmir. Narahatlıq doğuran həm də o məqamdır ki, feyk məlumatlar bəzən məqsədli şəkildə tirajlanır və yaxud onlar hansısa bir dövlətin milli maraqlarına xələl gətirməyi hədəfləyir. Bu, qərəzli informasiya təxribatıdır, məqsədli şəkildə aparılan "qara piar"dır. Forumun açılış mərasimində Prezident İlham Əliyevin bildirdiyi kimi, təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Hətta Amerika Prezidenti də buna məruz qalıb. Prezident Tramp "Vaşinqton Post"u və "Nyu-York Tayms"ı feyknyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Onunla razılaşmamaq mümkün deyil.



Azərbaycan da dəfələrlə transmilli mediada "qara piar" kampaniyalarına tuş gəlib. Qarabağ münaqişəsinin mövcud olduğu dövrdə ölkəmiz haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Belə hallar hətta postkonflikt dövründə də təkrarlanır. Prezident İlham Əliyev respublikamızın birmənalı mövqeyini növbəti dəfə diqqətə çatdıraraq vurğulayıb: "Əlbəttə, biz çox arzu edirik ki, media obyektiv olsun, hər kəs obyektiv olsun. Ancaq medianın xüsusi məsuliyyəti var. Çünki medianın mesajları, məsələni işıqlandırması bir çox insanların həyatına təsir edir".

Şuşadan verilən mühüm mesajlardan biri kolonializmdən əziyyət çəkən bütün xalqların dəstəklənməsinin zəruriliyini özündə ehtiva edir. Ədalətli dünya naminə bu dəstək hədsiz dərəcədə vacibdir. Çox kədərlidir ki, kolonializmdən əziyyət çəkən xalqların səsini heç kəs eşitmir. Çünki az sayda ölkə var ki, Fransanı əməllərinə görə ittiham etsin. Bir çox ölkələr buna göz yummağa çalışırlar, başqa tərəfə baxmağa çalışırlar. Özlərinə başağrısı axtarmırlar. Onlar qorxurlar ki, "Fiqaro" və ya "Le Monde" qəzetlərində demonizasiyaya məruz qalarlar. Həmin qəzetlər bu gün Fransa prezidentinin rejiminin təsiri altındadır. Həmin o media şirkətlərinə Yelisey sarayından hansı mesajların ötürüldüyü bəllidir. Azərbaycan köməyə ehtiyacı olan xalqlarla həmrəyliyin önündə yer alır. "Biz sizi hər zaman dəstəkləyəcəyik. Əlimizdən gələni edəcəyik ki, siz və sizin kimi milyonlarla insan öz torpağında azad yaşaya bilsin. Siz öz gələcəyinizi planlaşdırmalısınız. Siz öz irsinizi və ləyaqətinizi, dilinizi qorumalısınız, hansı ki, bu gün sizi ondan məhrum etməyə çalışırlar. Biz sizin yanınızda olacağıq", - deyə Prezident İlham Əliyev Fransanın sümürmə siyasətindən əziyyət çəkən ölkələrin təmsilçilərinə xitabən bildirib.

Şuşada ikinci dəfə baş tutan tədbirdə, həmçinin cari ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi COP29 ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri barədə də geniş müzakirələr aparılıb. Təəssüf ki, ötən ilin sonlarında COP29- a ev sahibliyi hüququ Azərbaycana veriləndə yenə də Fransa kimi bəlli ölkələrin təhriki ilə transmilli mediada respublikamıza qarşı çox geniş və koordinasiya edilmiş "qara piar" başladı. Hətta ölkəmizi cəzalandırmağa çağırışlar da edilirdi. Halbuki səsləndirilən ittihamların heç bir əsası yox idi. Belə qərəzli cəhdlərə məhəl qoymayan Azərbaycan hazırda qlobal tədbirə məsuliyyətli hazırlıq həyata keçirir. Prezident İlham Əliyev COP29-un gündəliyinin ən mühüm mövzularından birinə diqqət çəkərək vurğulayıb: "Biz inkişafda olan kiçik ada ölkələri ilə əməkdaşlıq edirik. Bizim COP29 çərçivəsində bununla bağlı tədbirimiz olacaqdır və orada ittifaq ölkələri də iştirak edəcək. Biz ittifaq ölkələri ilə birgə fond yaradacağıq ki, inkişafda olan həmin kiçik ada ölkələrinə kömək edək. Çünki bu vəziyyət onların mövcudluğuna təhlükədir".

*Mübariz ABDULLAYEV*

# Qarabağdan Ağ Evə mesaj...

## Azərbaycanın ABŞ ilə əlaqələrə strateji münasibəti

Bu günlərdə Şuşada baş tutan və dünyanın 50-dən çox ölkəsinin təmsilçilərinin qatıldıqları "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində sualları cavablandıran Prezident İlham Əliyev Azərbaycanın gündəliyinin aktual məsələləri ilə bağlı aydın və strateji baxışlarını diqqətə çatdırıb. Forumda ölkəmizin xarici siyasət kursunun prioritetləri də müzakirə mövzusu olub. O cümlədən foruma qatılan transmilli media qurumlarının təmsilçiləri Prezident İlham Əliyevə Azərbaycan - Amerika Birləşmiş Ştatları (ABŞ) münasibətlərinə aid sullar ünvanlayıblar.

## Hər zaman sabit olan ikitərəfli münasibətlər

ABŞ dünyada bir sıra parametrlər baxımından, o cümlədən iqtisadiyyatının həcminə, ordusunun gücünə görə supergüc dövlət sayılır. Buna görə də kiçik dövlət olan Azərbaycanla ABŞ-ın müqayisəsini aparmaq doğru olmazdı. Respublikamız digər ölkələr kimi, supergüc dövlət olan ABŞ-la münasibətlərini də qarşılıqlı maraqlar əsasında qurur. Respublikamızın üç onilliyi əhatə edən müstəqilliyi illərində Azərbaycanla ABŞ arasında yaxşı münasibətlər formalaşıb. Prezident İlham Əliyevin bildirdiyi kimi, bizim ABŞ-la münasibətlərimiz demək olar ki, hər zaman sabit olub.

İki ölkə arasında siyasi dialoq yüksələn xətlə inkişaf edib. Eyni zamanda, ötən dövrdə iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə adekvat olaraq qarşılıqlı maraqlar əsasında geniş iqtisadi əlaqələr qurulub. Enerji sektoru Azərbaycanla ABŞ arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətini təşkil edir. Bu ölkənin şirkətləri Azərbaycanın Xəzərdəki zəngin karbohidrogen yataqlarının işlənilməsi üzrə imzalanan layihələrdə iştirak edirlər. ABŞ rəsmiləri respublikamızın regional və qlobal enerji təhlükəsizliyinə töhfələrini yüksək dəyərləndirdiklərini özündə ehtiva edən çoxsaylı açıqlamalar veriblər. Son vaxtlar dövlət katibi Entoni Blinken və digər rəsmilər səviyyəsində "yenilənmiş və daha möhkəm ikitərəfli əməkdaşlığa" çağırışlar səsləndirlir. O cümlədən ABŞ prezidenti Co Bayden Bakı ilə "güclü ikitərəfli münasibətlərin bərpa olunması imkanı" yaranmasını təqdir etdiyini bildirib. O da vurğulanmalıdır ki, Vaşinqton Azərbaycan-Ermənistan arasında sülhyaratma prosesində aktiv rol almağa səylər göstərən ölkədir.

Öz növbəsində Prezident İlham Əliyev Azərbaycanın təşəbbüsləri ilə reallaşdırılan enerji layihələrinə ABŞ-ın siyasi və maddi dəstəyini dəfələrlə diqqətə çatdırıb. Dövlətimizin başçısı Şuşada baş tutan forumda ölkəmizin ikitərəfli münasibətlərə strateji, vacib mövqedən yanaşdığını diqqətə çatdırıb. "Azərbaycan - ABŞ münasibətlərindən söhbət açarkən ölkəmizin Ağ Evin çağırışlarına qoşularaq sülhməramlı əməliyyatlarda fəal iştirakını xüsusi qeyd edə bilərik. Məlumdur ki, bu əməliyyatlar başlayanda Azərbaycan ilk qeyri-NATO ölkəsi idi ki, Əfqanıstanda həmin əməliyyatlara qoşuldu və oradan sonuncu çıxdı. Bildirildiyi kimi, ABŞ qoşunları ölkəni tərk etdi və daha dəqiq desək, oranı qoyub qaçdılar. Həmin kritik dönəmdə Azərbaycan hərbçiləri hələ də orada idilər. "Biz Türkiyənin Silahlı Qüvvələri ilə birlikdə hava limanını tərk edən sonuncu ölkələr olduq. Bu idi bizim tərəfdaşlığımız. Əfqanıstanla bağlı onların bizə ehtiyacı var idi. Mən xatırlayıram ki, ABŞ-ın yüksəkrütbəli məmurları və nəqliyyat komandanlığı, Müdafiə Nazirliyinin nəqliyyat komandanı Azərbaycana dəfələrlə gəlirdilər və bizə minnətdarlıq bildirirdilər ki, Azərbaycan "Şimal şəbəkə" adlandırılan bir dəhliz idi və biz onun tərkib hissəsi idik. Onu da qeyd etmək lazımdır ki, Əfqanıstana gedən əsas marşrut çox çətin marşrut idi", - deyə Prezident İlham Əliyev vurğulayıb.






## Azərbaycanın günahı olmadan baş verənlər

Zaman-zaman Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərdə narahatlıq doğuran məqamlar da yaşanıb. Ancaq bu, ilk növbədə qarşı tərəfin suverenlik prinsiplərindən, demokratiyadan uzaq olan yanaşmaları, əsassız iddiaları səbəbindən baş verib. Bunu diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb: "Əlbəttə ki, müəyyən enişli-yoxuşlu dövrlər olub və o da bizim günahımız deyildi. Çünki bəzən Azərbaycanla bağlı müəyyən şişirdilmiş gözləntilər olub. Digər tərəfdən, onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışıblar, siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər. Bu cəhdlər birbaşa və ya müəyyən QHT-lər vasitəsilə olub. Bildiyiniz kimi, Azərbaycan balaca ölkədir və Bakıda hər kəs hər şeyi bilir. Ona görə bunu gizlətmək çətin olardı".

ABŞ-da Azərbaycana qarşı məhdudlaşdırıcı tədbirləri nəzərdə tutan bədnan 907-ci düzəlişin qəbul olunması bu ölkə üçün bir üzqarasıdır. Həmin sənədin qüvvəyə minməsi ilə ABŞ əslində təcavüzkar Ermənistanı dəstəklədiyini ortaya qoydu. ABŞ "Azadlığa dəstək" aktına 907-ci düzəlişi qəbul edəndə buna heç bir məntiqi əsaslandırma və izah təqdim etmədi. Bu idimi Vaşinqtonun Azərbaycana təşəkkürü? "Uzun illər ərzində biz onlara qarşı etdiyimizin və yaxşı tərəfdaş olduğumuzun müqabilində Azərbaycan xalqı nə düşünə bilər bu Administrasiya haqqında? Yəni deməli, siz onlara lazım olanda olursunuz yaxşı bir adam, yaxşı bir ölkə, sizin haqqınızda təriflər yağdırırlar. Onların sizə ehtiyacı olmayanda nəinki sizə biganə yanaşırlar, hətta sanksiyalar tətbiq edirlər. Nəyə görə? Çünki biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etmişik. Mən bunu demək olar ki, bütün liderlərə demişəm bir neçə gün öncə Oksfordda - Britaniyada. Çünki onlar hamısı mənə Ermənistan haqqında, sülh sazişi haqqında suallar verirlər. Sanki Avropada bütün məsələlər həll edilib və Ermənistan-Azərbaycan məsələsi yerdə qalan yeganə problemdir. Mən təəccüb edirdim ki, onlar hər zaman bütün söhbətlərdə bu məsələni qaldırırlar. Mən heç vaxt Avropa liderləri və ya digər liderlərlə danışığımda bizə, mənə şəxsən aid olmayan heç bir məsələni müzakirə etmirəm. Mən bu görüşlərdə onlara izah etməyə çalışırdım ki, bizim etdiyimiz sizin dəstəklədiyiniz tərəfin hərəkətlərindən heç nə ilə fərqlənmir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

ABŞ-ın Ermənistanda "Eagle Partner 2024" adlı hərbi təlimlər keçirməsi də regional təhlükəsizlik nöqteyi-nəzərindən ciddi narahatlıq doğurur. Xatırladaq ki, ötən ilin sentyabrında "Eagle Partner" təlimlərinin birincisi keçirilmişdi. Doqquz gün davam edən həmin təlimlərə 85 ABŞ, 175 Ermənistan hərbçisi qatılmışdı. Budəfəki təlimlər sayca ikincidir. Aydın məsələdir ki, təlimlər hərbi məqsədlərdən daha çox dərəcədə siyasi xarakterlidir. İkinci dəfə baş tutan bu hərbi təlimlər Ermənistanın indiki hakimiyyətinin ölkənin siyasi oriyentasiyasını dəyişmək, Şimal qonşumuzdan qopub Qərbə istiqamətlənmək və ABŞ-ın regionda mövcudluğunu təmin etmək planlarının tərkib hissəsidir. Bu təlimlərlə Vaşinqton həm də Ermənistandakı revanşist qüvvələri yeni hərbi kampaniyalara təşviq edir. ABŞ-nın Ermənistanda bütün region dövlətləri üçün təhdidlər yaradan təhlükəli oyunları yalnız birgə hərbi təlimlərin keçirilməsi ilə yekunlaşmır. Bu ölkənin regionda daha bir təhlükəli oyunu nüvə proqramı ilə bağlıdır. Vaşinqton Ermənistanda yeni nüvə reaktoru yaradır və onsuz da bütün region üçün böyük təhlükə kəsb edən Metsamoru daha da gücləndirir. Bütün bunlardan sonra Ağ Evin vasitəçilik səylərinin səmimi olduğuna necə inanasan?

## Gələcək əməkdaşlıqla bağlı ölkəmizin nikbinliyi

Respublikaçıların hakimiyyəti dönəmində ikitərəfli əlaqələrin nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü olduğunu bildirən Prezident İlham Əliyev seçkilərdən sonra ABŞ-da və Avropada Azərbaycan haqqında daha yaxşı anlayış olacağına nikbinliyini diqqətə çatdırıb. Hazırda bütün dünyada cari ilin noyabrında Amerika Birləşmiş Ştatlarında keçiriləcək prezident seçkiləri ilə bağlı ciddi müzakirələr aparılır ki, bu da təsadüfi deyil. ABŞ-nın növbəti mərhələdə siyasi kursunun istiqaməti noyabr seçkilərində Ağ Evə rəhbərliyin kimə keçəcəyindən çox asılıdır.

Seçki marafonunda respublikaçılar sabiq prezident Donald Trampın namizədliyi ilə yenidən hakimiyyətə gəlmək, demokratlar isə öz hakimiyyətlərini qorumaq istəyi ortaya qoyurlar. Demokratlar seçkilərə hazırlığa indiki prezident Co Baydenin namizədliyi ilə başlasalar da, bu günlərdə onun mübarizəni davam etdirməyəcəyi bəlli oldu. Beləliklə də, demokratları seçkilərdə digər namizəd təmsil edəcək. Dövlətimizin başçısı ABŞ-da keçiriləcək seçkilərlə bağlı sualı səmimiyyətlə cavablandıraraq deyib: "Biz bir-birimizi onilliklərdir tanıyırıq və tamamilə əminəm, siz də yaxşı bilirsiniz ki, mən kimə üstünlük verərdim. Düşünürəm ki, Azərbaycanda mən bu məsələdə, bu mövqedə yeganə deyiləm. Bizə gəldikdə, bu məsələyə öz nöqteyi-nəzərimizdən yanaşırıq. Qərarı Amerika xalqı verəcək. Bu, onların prezidentidir. Lakin, eyni zamanda, bu, bütün dünya üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bir çox xalqların və ölkələrin taleyi böyük dərəcədə Birləşmiş Ştatların birinci şəxsinin verəcəyi qərarlardan asılı olacaq. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax, bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər".

*Mübariz FEYİZLİ*

# Bəzi ölkələrin COP saxtakarlığı ifşa edildi...



Prezident İlham Əliyev Şuşada 2-ci Qlobal Media Forumunun açılış mərasimində media nümayəndələrinin suallarını cavablandırarkən iqlim dəyişiklikləri ilə mübarizədə Azərbaycanın qarşısına qoyduğu məqsəd və vəzifələrdən bəhs edib. COP29-a ev sahibliyi edən ölkəmizin COP heyətinin çox səmərəli işlədiyini, gündəliyimizin proqnozlaşdırıla bilən, aydın hədəflərə, məqsədlərə, nəticələrə köklənmiş olduğunu xatırladıb. Dövlətimizin başçısı iqlim sammitinin Azərbaycana həvalə olunması ilə bağlı qərarın qəbul edilməsindən altı ay keçməsinə baxmayaraq ölkəmizə qarşı əsassız ittihamların və hücumların artdığına da diqqət çəkib. Bunun başlıca səbəbi isə Azərbaycanın neft və qaz ölkəsi olmasıdır. Guya yanacaq istehsal və emal edən ölkədə ətraf mühitlə bağlı irəliləyişlər əldə etmək qeyri-mümkündür.

Əlbəttə, bu cür iddiaların heç bir əsası yoxdur və tamamilə qərəzli xarakter daşıyır. Çünki hazırda dünyada ətraf mühitə zərər verən, daha doğrusu, karbon dioksidi yayan əsas ölkələr yüksək inkişaf etmiş dövlətlərdir ki, iqlim dəyişikliklərində əsas məsuliyyət onların üzərinə düşür. Məsələn, enerji və sənaye sektorlarında istixana effekti yaradan bu qazların təkcə 25 faizi (5,8 milyard ton) ABŞ-ın payına düşür. Yaxud, Hindistan, Rusiya, Braziliya, Yaponiya və digər ölkələr karbon dioksid emissiyasnda ən çox paya sahibdir. Çünki bu ölkələrin sənaye sektoru ənənəvi yanacaq emissiya edərək qlobal ekoloji mühitə ən çox zərərləri törədir. Neft və qazla zəngin olan körfəz ölkələri, Xəzəryanı dövlətlərin isə istilik effekti yaradan qazların emissiyasında payı həmin dövlətlərdən 30-40 dəfə azdır.

Azərbaycanın dövlət başçısı Şuşada məhz bu məsələyə diqqəti cəlb etməklə Azərbaycanı riyakarcasına hədəfə almaq istəyən Avropa və ABŞ QHT-lərini, müxtəlif dairələrin saxtakarlığını ifşa etdi. Cənab İlham Əliyevin "ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda - Böyük Britaniyanın neft hasil etdiyi bir bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Yaxud, COP-a Misir ev sahibliyi edibdir. Onların da neft və qazı var. Bizdən sonra da Braziliya ev sahibliyi edəcək. Yenə də neft və qaz ölkəsidir. Bu, onu göstərir ki, bu ölkələr enerji təhlükəsizliyi baxımından özlərini çox rahat hiss edən ölkələrdir. Onlar məsuliyyət nümayiş etdirirlər. Onlar "yaşıl texnologiya"ya, "yaşıl keçid"ə sərmayə qoyur, töhfə verirlər".

Dünyada karbon dioksid (CO2) emissiyası 1990-cı ildən indiyə qədər 60 faizdən çox artıb ki, bu zərərli tendensiyanın böyüməsində, sənaye çirklənməsində




neft-qaz ölkələri yox, dünyanın əsas sənaye dövlətləri vəsilə olubdur. Ona görə də, COP29-a ev sahibliyi edən Azərbaycanı neft-qaz bəhanəsi ilə ətraf mühitə laqeyd ölkə kimi ittiham etmək saxtakarlıq və açıq riyakarlıqdır. Azərbaycan son illərdə CO2 göstəricisi üzrə kifayət qədər böyük azalma nümayiş etdirib və Azərbaycanda karbon dioksid (CO2) emissiyasını 1990-cı ildəki 58 milyon tondan 2020-ci ildə

30 milyon tona endirib. Ölkəmiz İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Əlavə 1 qrupuna daxil olmayan tam hüquqlu tərəf kimi İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası qarşısında istilik effekti yaradan qaz tullantılarının kadastrının hazırlanması, müntəzəm olaraq yenilənidirilməsi, milli məlumatların hazırlanması kimi öhdəliklər götürmüşdü və bu öhdəlikləri sistemli şəkildə yerinə yetirib. Azərbaycan artıq AVRO-5 standartlarına keçib və bu amil də nəqliyyatın ətraf mühitə buraxdığı qazların miqdarının azalmasında mühüm rol oynayacaq..

2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan edən Azərbaycan bu istiqamətdə iradəsini nümayiş etdirir.

Azərbaycanda və MDB regionunda ilk dəfə keçiriləcək COP29 beynəlxalq və yerli şirkətlərin bərpa olunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yenilikləri təqdim etmək, Günəş və külək enerjisi, yaşıl hidreogen və s. enerji mənbələrinin istehsalı və nəqli ilə bağlı niyyətlərini səfərbər etmək, qlobal "yaşıl enerji" həmrəyliyini inkişaf etdirmək baxımından yeni fürsətlər açacaq. Dövlətimizin başçısının vurğuladığı kimi bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. "Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq".

Azərbaycan 2050-ci ilə qədər istixana qazı emissiyalarının 40 faizə qədər azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "xalis sıfır emissiya" zonası yaradılması niyyətini bəyan edib. Həmin məqsəd və hədəflərə uyğun olaraq bu bölgədə yaxın 20 ildə alternativ enerji bloklarının tam hərəkətə gətirilməsi nəzərdə tutulur. Azərbaycan COP-29-a sahiblik edən ölkə kimi iqlim sammitinin də formatına yeni keyfiyyət dəyişiklikləri gətirir, dünyanın bir çox ölkələri ilə "yaşıl enerji" imkanlarını vahid bir koalisiyada birləşdirməyə çalışır, Avropa, Asiya,Yaxın Şərq və körfəz ölkələrini "yaşıl enerji" layihələrində sərmayə ötürücülüyünə təşviq edir.

## Azərbaycan MDB-də ilk dəfə COP29-a ev sahibliyi etməklə qlobal "yaşıl enerji" həmrəyliyində yeni imkanlar yaradacaq

Bunun nəticəsidir ki, cari ilin birinci yarısında böyükhəcmli yaşıl sərmayələrin ilk addımları atılıb, xüsusilə də körfəz ölkələrindən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri ilə bərpa olunan enerji sektorunda böyükhəcmli sərmayə layihəsinin əsası qoyulub və hər iki şirkət külək və Günəş enerjisi stansiyalarının tikintisini davam etdirir. Bundan başqa, digər investorlar - "BP", "Fortescue Future Industries", "China Gezhouba Group","Total Energies", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digər şirkətlərlə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlıq başlanıb.

OPEC-lə yanaşı, dünyanın digər böyük donor institutları, o cümlədən Dünya Bankı (DB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) da COP29 və "yaşıl hidrogen" istehsalında Azərbaycana öz maliyyə dəstəyini göstərəcəyini bəyan edib. DB Azərbaycanda 760 MVt gücündə Bankə və Biləsuvar günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri, "yaşıl hidrogen" və sahələrə investisiyalara açıq olduğunu bəyan edib. Avropa Bankı da bərpa olunan enerji və regional "yaşıl enerji" dəhlizinin həyata keçirilməsində maliyyə donorluğuna razılıq verib. AYİB isə 2027-ci ilədək 8 külək və Günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb.

Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına görə, iqtisadi baxımdan quruda günəş və külək stansiyalarının potensialı Azərbaycanda 27 qiqavat həcm istehsal etməyə imkan verə bilər. Bu gücdə bərpaolunan enerji güclərinin (istismara verilmiş və təməli qoyulmuş stansiyalar daxil olmaqla 2 külək və 6 Günəş stansiyası) ölkənin ümumi elektroenergetika şəbəkəsinə inteqrasiyası isə Azərbaycanın liderliyi ilə Xəzər - Qara dəniz - Avropa Yaşıl Enerji Dəhlizi ilə Avropaya kifayət qədər böyük "yaşıl enerji" ixracına imkan verəcək. Bu layihə isə Cənub Qaz Dəhlizindən də daha böyük olmaqla dünya ölkələri arasında əməkdaşlığın daha nəhəng bir formatına çevriləcək.

*ELBRUS CƏFƏRLİ*

# Sülhün vaxtı çatsa da...

**Son vaxtlar Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesi ilə bağlı müzakirələr intensivləşib. Bu günlərdə tənzimləmə prosesində fəal şəkildə yer almağa çalışan Vaşinqtondan növbəti nikbin məzmunlu açıqlama gəlib. "Azərbaycan və Ermənistan sülh sazişi ilə bağlı əhəmiyyətli irəliləyiş əldə etməkdə davam edir". Bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller deyib. O bildirib ki, ABŞ prosesi dəstəkləmək işinə sadiqdir. "Artıq sülhün vaxtıdır. Biz bu sazişə nail olmaq üçün çalışmağa davam edirik", - deyə Metyu Miller qeyd edib. Əlbəttə, sülhyaratma prosesi ilə bağlı nikbin məzmunlu bəyanatlar eşitmək xoşdur. Ancaq o həqiqət də ortadadır ki, sülhə Vaşinqtonda və yaxud digər paytaxtlarda nail olunmayacaq. Prosesin dinamikası və substantiv nəticələnməsi ilk növbədə tərəflərin - Azərbaycanın və Ermənistanın yanaşmalarından, sülhə sözdə deyil, reallıqda sadiq qalmalarından asılıdır. Prezident İlham Əliyev bu günlərdə keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən maraqlı müqayisə aparıb. "...hansı Cənubi Qafqazda yaşamaq istəyirik. Hamı deyəcək ki, biz sülh içində yaşayan, münaqişəsiz, müharibəsiz, ərazi iddiası olmayan, hamının bir-birini sevdiyi, əməkdaşlıq etdiyi Cənubi Qafqaz istəyirik. Lakin bu, badə qaldıranda gözəl kəlamlardır, real siyasət üçün belə deyil", - deyə dövlətimizin başçısı vurğulayıb.**

## Azərbaycan sülh üçün real yollar axtarır

Həqiqətən də real siyasət üçün şərtlər tamam fərqlidir. Sülh istəyən dövlət öz öhdəliyini yalnız bəyanatlar səsləndirməklə bitmiş hesab etməməlidir, ardıcıl və qətiyyətli mövqedə dayanmalıdır. Müharibəni Zəfərlə bitirən Azərbaycan məhz belə yanaşma sərgiləyir. Qalib Azərbaycan o mövqedən çıxış edir ki, onilliklər ərzində davam edən münaqişə artıq həllini tapıb, işğal faktına son qoyulub, ölkəmizin suverenliyi tam təmin edilib. Bundan sonra qarşıda duran əsas məsələ iki ölkə arasında münasibətlərin normallaşmasına nail olmaqdan ibarətdir. "Bizim ölkə və şəxsən mən sülh sazişi üzərində işləməyi təklif etdim", - deyə Prezident İlham Əliyev bildirib.

Müharibə başa çatdıqdan sonra Azərbaycanın mövqeyi, sülh istəyi açıq şəkildə bəyan edilib. Ancaq Ermənistandan bir cavab gəlməyib. Bir müddətdən sonra qalib Azərbaycan sülh üçün zəruri saydığı prinsiplərini elan edib. Bildirildiyi kimi, bu, beş prinsipdir, təməl prinsipləridir, beynəlxalq hüququn prinsipləridir. Yenə də Ermənistana çox uzun müddət lazım oldu ki, bu prinsiplərlə razılaşsınlar. "Yəni o zamandan etibarən danışıqlar bizim təşəbbüsümüzlə başladı. Həmin danışıqlar bir müddət davam etdi və burada heç bir ciddi irəliləyiş olmadı. Bunun bir xüsusi səbəbi var idi, çünki Ermənistan həmin sülh sazişinə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi. Biz bunun qəti əleyhinə idik. Çünki bu, bizim daxili məsələmizdir. Daxili məsələlər müzakirə mövzusu ola və təbii ki, sazişə də daxil edilə bilməz. Bu məsələ açıq qaldıqca digər məsələlər haqqında, o qədər də əhəmiyyətli olmayan məsələlər haqqında danışmağın mənası yox idi. Azərbaycan öz suverenliyini ötən ilin sentyabrında bərpa etdikdən sonra biz daha üç ay gözlədik ki, Ermənistan nəhayət, danışıqlara yenidən başlasın. Yəni, praktiki baxımdan mahiyyət etibarilə real danışıqlar altı aydır - dekabr ayından başlayaraq gedir və o, xarici işlər nazirləri səviyyəsində həyata keçirilir. Müxtəlif ölkələrdə bir neçə görüş keçirilibdir", - deyə Prezident İlham Əliyev keçilən yolu xatırladıb.

Qalib statusuna rəğmən, hər hansı bir üstünlüyə nail olmaq niyyətindən uzaq olması Azərbaycanın sülh prosesinə sadiqliyinin əyani göstəricisidir. Sülh prosesində indiyədək əldə olunan müəyyən irəliləyişlər də məhz respublikamızın qətiyyətli yanaşması və təşəbbüsləri sayəsində mümkün olub. Verilən məlumata görə, sülh sazişinin mətninin 80-90 faizi razılaşdırılıb.

## Ermənistan sülhdən qaçır

Tənzimləmə prosesinin digər tərəfi olan Ermənistan isə açıq-aşkar sülhdən qaçır. Baş nazir Nikol Paşinyan və digər yüksəksəviyyəli rəsmilər artıq neçənci dəfədir ki, "bir ay ərzində sülh sazişini imzalaya bilərik" deyirlər. Reallıq isə bunun tamam əksidir. Açıq demək lazımdır ki, Ermənistan rəsmiləri xarici havadarlarından aldıqları tezislərə uyğun qaydada sülh prosesini manipulyasiya predmetinə çeviriblər. Onlar müxtəlif auditoriyalar qarşısında fərqli, bir-birini təkzib edən açıqlamalar verirlər. Sülhə sadiqlikdən danışan N.Paşinyan bu günlərdə Londonda Avropa Birliyinin sammitində Azərbaycan Prezidentinin növbəti görüş təklifindən imtina etdi. Sual olunur: Niyə? Axı iki ölkə arasında sülyaratma prosesi çətin gedir. Məhz sıx təmaslarla onu irəli aparmaq mümkündür. Londonda baş verənlərə aydınlıq gətirən dövlətimizin başçısı deyib: "Bununla yanaşı, mətn üzərində danışıqlar davam edir. Deyə bilmərəm ki, xarici işlər nazirləri növbəti görüşü nə zaman keçirəcək? Bu gün mən daha az nikbinəm. Çünki bildiyiniz kimi, baş nazir Paşinyan mənimlə Britaniyada görüşməkdən imtina etdi. Bu, Britaniya Hökumətinin təşəbbüsü idi. Təklif o idi ki, bizim aramızda belə bir görüş keçirilsin, həmin Oksford tədbiri çərçivəsində. Ermənistan tərəfi bu təklifi rədd etdi".



Şübhə yoxdur ki, N.Paşinyanın Londonda sülh naminə görüş təşəbbüsünə "yox" deməsinin göstərişi məhz sammitə qatılan Makrondan gəlib. Çünki sammit öncəsi Ermənistan KİV-lərində Azərbaycan və Ermənistan liderlərinin Londonda görüşəcəklərinə dair razılaşmanın əldə olunduğunu özündə ehtiva edən məlumatlar yayılırdı. N.Paşinyan Londonda Makronla görüşdükdən sonra isə görüş təklifini geri çevirdi. Ekspertlərin qənaəti ondan ibarətdir ki, Makron Londonun proseslərə qoşulmaq niyyətinə qısqanclıqla yanaşır, buna görə də forpost ölkənin liderini görüşdən imtinaya çağırıb və sonuncu da bunu qəbul edib.

## Azərbaycanın sülh üçün iki mühüm şərti

Tənzimləmə prosesinə sadiqlik nümayiş etdirən Azərbaycanın qalıcı sülh üçün iki mühüm şərti var. Ermənistan həmin şərtləri yerinə yetirməlidir.

Birinci şərt: Azərbaycan reallıqdan çıxış edərək Ermənistana artıq ölü quruma çevrilmiş Minsk qrupunun ləğvi ilə bağlı ATƏT-ə birgə müraciət ünvanlamağa çağırış edir. Ermənistan isə müxtəlif bəhanələr gətirməklə bunu etməyə tələsmir. "Birincisi, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir ki, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki artıq uzun müddətdir bu qrup fəaliyyətsizdir, bəlkə də bir-iki ildir. Minsk qrupunun fəaliyyətdə olması üçün heç bir səbəb yoxdur. Çünki həmsədrlər de-fakto bir-biri ilə müharibədədir, yəni onların ikisi digərinə qarşı bir yerdədirlər. Fransa burada bütün imkanlardan məhrum edilib. Onlar nəinki vasitəçi, heç bu regionda ola bilməzlər. Onlar Cənubi Qafqaz regionunda bizim razılığımız olmadan mövcud ola bilməzlər. Bizsiz onu etmək istəyirlərsə, onlar uğursuzluğa düçar olacaqlar və bu, bir daha onlar üçün çox acınacaqlı və ağrılı bir məsələ olacaq".

İkinci şərt: Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən müddəalar yer alır. Həmin müddəalar əsas qanunda qaldıqca sülh sazişinin imzalanması mümkün deyil. Buna görə də Ermənistan real olaraq sülh istəyirsə mütləq qaydada ölkəmizə qarşı ərazi iddialarına konstitusional əsasda son qoymalıdır. "Növbəti şərt odur ki, Ermənistan konstitusiyasında dəyişikliklər edilməlidir. Bizim onların daxili işlərinə hər hansı bir müdaxilə etmək niyyətimiz yoxdur. Ermənistan konstitusiyasında müstəqillik barədə müddəa var və orada Azərbaycanın ərazi bütövlüyünə qarşı təhlükə var, təhdid var. Orada Ermənistanın və dırnaqarası "Dağlıq Qarabağ"ın birləşməsindən söhbət gedir. Yəni, bu müddəa o konstitusiyada olduğu müddətdə sülh sazişi mümkün deyil", - deyə Prezident İlham Əliyev vurğulayıb.

*Mübariz FEYİZLİ*

## Azərbaycan-Türkiyə-Türkmənistan enerji həmrəyliyi

# Yeni enerji platforması

Qlobal miqyasda, o cümlədən də Avrasiyada artan geosiyasi gərginliklər fonunda Xəzər - Qara dəniz hövzələri coğrafiyasında yerləşən Türkdilli ölkələr arasında genişlənən çoxtərəfli inteqrasiyanın perspektivləri kifayət qədər cəlbedici görünür. Türk dünyası geniş coğrafiya olmaqla yanaşı, həm də böyük iqtisadiyyat və zəngin resurslardır. Aydın şəkildə dərk olunur ki, bu coğrafiyada inteqrasiyanın dərinləşdirilməsi yalnız Türk Dövlətləri Təşkilatında (TDT) birləşən ölkələr üçün deyil, bütövlükdə, Avrasiya regionu üçün müstəsna önəm daşıyır. Xüsusilə də son vaxtlarda Türkiyə, Azərbaycan və Mərkəzi Asiyada yerləşən Türk dövlətləri arasında müxtəlif spektrlər üzrə dinamik enerji dialoqu, qaz tədarükü və tranziti ilə bağlı razılaşmaların əldə olunması Avropa üçün müstəsna önəm daşıyır.

## “Qoca qitə”nin mavi yanacağa artan tələbatı

Rusiya ilə Ukrayna arasında məlum münaqişə başlayanadək Aropanın enerji təchizatı böyük dərəcədə şimal qonşumuzdan reallaşdırılan ixrac hesabına təmin olunurdu. Sonu görünməyən gərginliklər, o cümlədən də qarşılıqlı sanksiyalar fonunda fərqli mənzərə yaranıb. Gündəlik 5 milyon barel neft ixracatı həyata keçirən Rusiya bu həcmin 70 faizini ABŞ və Avropa bazarlarına ünvanlayırdı. “Qoca qitə”nin neftə olan tələbatının ödənilməsində şimal qonşumuz 25 faiz paya malik idi.

Rusiya Avropa üçün həm də ənənəvi olaraq optimal qaz təchizatı mənbəyi sayılırdı. Statistik məlumatlara görə, 2022-ci ilin əvvəlinədək Rusiya Avropa İttifaqı məkanına ildə 150-190 milyard kubmetr qaz ixrac etməklə “qoca qitə”nin təbii qaza olan tələbatının 40 faizə qədərini qarşılayırdı. İndi bu ölkədən Aİ məkanına enerji məhsullarının ixracı əhəmiyyətli dərəcədə azalıb. Bütövlükdə, “qoca qitə”nin illik qaz tələbatı 552 milyard kubmetrə bərabərdir.

Qarşılıqlı sanksiyalar səbəbindən azalan idxal həcmlərini Avropa digər mənbələrdən təmin etmək məcburiyyətində qalıb. Alternativ mənbələr sırasında Türkiyə, Azərbaycan və Mərkəzi Asiya regionu xüsusilə cəlbedici görünür. Bəhs olunan tədarük zəncirində Türkiyə daha çox tranzit, Azərbaycan həm istehsalçı, həm də tranzit, Mərkəzi Asiya dövlətləri isə daha çox dərəcədə istehsalçı ölkələr qismində çıxış edə bilərlər. Türkdilli ölkələr üçün yeni fürsət pəncərəsinin açılmasını şərtləndirən çoxsaylı amillər sadalamaq mümkündür. Burada istehsalçı və tranzit ölkələrin Avropa coğrafiyasına məsafəcə yaxınlığı, öz aralarında tarixi bağlara əsaslanan yaxşı qonşuluq münasibətlərinin olmasını, inteqrasiyanın dərinləşməsinə dövlətlərin qətiyyətli siyasi iradə ortaya qoymaları və cəmiyyətlərdən buna güclü dəstək gəlməsi, TDT-də birləşmələri, bu günlərdə Şuşada daha sıx inteqrasiyanı, o cümlədən də enerji əməkdaşlığının genişləndirlməsini hədəfləyən Qarabağ Bəyannaməsinin imzalanması və resursların zənginliyi kimi cəhətləri önə çəkə bilərik.

## Azərbaycanın moderatorluğu ilə yaradılan müasir nəql infrastrukturu



Enerji resurslarının zənginliyi heç də bütün hallarda ölkələrin xoşbəxtliyi anlamına gəlmir. Mövcud geosiyasi reallıqlar resurslarla yanaşı, nəql marşrutlarının yaradılmasının və onların şaxələndirilməsinin nə qədər önəmli olduğunu bir daha gündəmə gətirib. Açıq deyək, bu gün kəmərlər də siyasi təzyiq alətinə çevrilib. Bir sıra ölkələr var ki, məhz optimal marşrutların olmaması səbəbindən öz resurslarını istehlak məntəqələrinə çatdırmaqda çətinliklərlə üzləşirlər və buna görə də adekvat olmayan şərtləri qəbul etmək məcburiyyətində qalırlar. Azərbaycan rəhbərliyi strateji baxışları və yanaşmaları sayəsində ölkəmizin bu problemdən yan keçməsini təmin edib.

Qeyd etdiyimiz kimi, Azərbaycan Avropa üçün həm təchizatçı, həm də tranzit ölkədir. Xatırladaq ki, 2022-ci il iyulun 18-də ölkəmizlə Avropa İttifaqı arasında “Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin imzaladıqları sənədlə ölkəmizlə Aİ arasında enerji dialoqunun keyfiyyətcə yeni səviyyəyə yüksələcəyi fikrini qətiyyətlə ifadə edə bilərik. Həmin sənədi bütövlükdə, enerji dialoqunun müxtəlif aspektlərini əhatə edən strateji yol xəritəsi kimi də dəyərləndirmək mümkündür. Memorandumda tərəflərin Azərbaycandan “qoca qitə”yə 2027-ci ilədək qaz ixracının iki dəfə artırılması ilə bağlı niyyətləri də ifadə olunub. 2023-cü ildə Azərbaycan qazının Avropaya tədarükü əvvəlki illə müqayisədə 3,5 faiz artaraq 11,8 milyard kubmetr təşkil edib. Bu barədə energetika naziri Pərviz Şahbazov bildirib. 2022-ci ildə Azərbaycan qazının Avropa ölkələrinə ixracının həcmi 11,4 milyard kubmetr olub. Beləliklə, 2023-cü ildə ixracda 400 milyon kubmetr artım baş verib.

O cümlədən Azərbaycanın moderatorluğu ilə yaradılan müasir infrastruktur - Cənub Qaz Dəhlizi respublikamıza həm təchizatçı, həm də tranzit ölkə kimi böyük üstünlüklər qazandırır. Zamanında respublikamız özünün böyük qaz həcmlərini ixrac etmək və Avropanın enerji təhlükəsizliyinə yeni töhfələr vermək məqsədilə Cənub Qaz Dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb. Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. 2011-ci ildə Azərbaycan və Avropa Komissiyası arasında Cənub Qaz Dəhlizi layihəsi üzrə Birgə Bəyannamə imzalanıb və bu, həmin layihənin icrasının başlanğıc mərhələsi olub.

Açıq dənizə çıxışı olmayan Azərbaycanı Aralıq və Adriatik dənizləri ilə birləşdirən layihə bir vaxtlar çoxlarına xəyal kimi görünsə də, artıq reallıqdır. Cənub Qaz Dəhlizi üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemidir - Cənubi Qafqaz boru kəməri, Trans-Anadolu (TANAP) boru kəməri və Trans-Adriatik (TAP) boru kəməri. TAP İtaliyaya qədər uzanır. Cənub Qaz Dəhlizi 3500 kilometr uzunluğunda mürəkkəb texniki infrastrukturdur. Onun bir hissəsi hündür dağlardan, bir hissəsi isə dənizin dibindən keçir. 2020-ci ilin son günü - dekabrın 31-də layihənin yekun hissəsi olan TAP istifadəyə verildi. Həmin dövrdən etibarən Azərbaycan Türkiyə və Gürcüstandan əlavə, Avropanın 10-dək ölkəsinə də qaz nəql edir. 2024-cü ilin əvvəlinədək bu kəmərlə Azərbaycandan istehlakçı ölkələrə 31 milyard kubmetrdən çox qaz ixrac edilib.

## Azərbaycan,Türkiyə və Türkmənistan arasında qaz razılaşması

İndiki mərhələdə isə Türkmənistan qazının Avropaya ötürülməsi məsələsi gündəmə gəlib. Hazırda Türkmənistan qazının Avropaya çatdırılması üçün intensiv müzakirələr aparılır. Ən cəlbedici variantlardan biri isə heç şübhəsiz ki, Azərbaycan və Türkiyə üzərindən keçən marşrutdur. Cari ilin may ayında Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Azərbaycan üzərindən Türkiyəyə tədarükü ilə bağlı razılıq əldə olunub. Razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum və Trans-Anadolu Qaz Boru Kəməri vasitəsilə qardaş ölkəyə nəql olunacaq. Bu saziş 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistanın dövlət başçılarının birinci üçtərəfli Zirvə görüşü çərçivəsində imzalanmış sazişin davamı olmaqla regionda yeni trans-qaz marşrutunun yaradılmasına hüquqi zəmin formalaşdırır. Belə ki, Türkmənistanın “Türkmənqaz” Dövlət Konserni, Azərbaycanın Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi tərəfindən imzalanmış “Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum” baza sənədi olmaqla sözügedən qaz layihəsinin gerçəkləməsinə yol açır.

Hazırda əsas müzakirə mövzularından biri Türkmənistan qazının Azərbaycan üzərindən Türkiyəyə necə çatdırlmasıdır. “Ankara Türkmənistandan təbii qazın Türkiyə vasitəsilə Avropaya nəqli üçün alternativləri araşdırır”. Bunu Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar Enerji və İqlim Forumunda bildirib. Onun sözlərinə görə, Türkmənistan qazı uzun illərdir gündəmdə olan məsələdir: “Biz şəraitin yetişdiyi bir mərhələdəyik. Qazın çatdırılması üçün üç variant var. Bunlardan biri də türkmən qazının svop yolu ilə İran vasitəsilə Türkiyəyə ötürülməsidir.

Digər variant isə İran və Azərbaycan üzərindən mübadilə yolu ilə Türkiyəyə gəlməsidir. Alternativ olaraq, Türkmənistan qazı Xəzər dənizindən keçən boru kəməri vasitəsilə Türkiyəyə tədarük edilə bilər ki, bu da mahiyyət etibarilə daha uzunmüddətli, daha davamlı və daha böyük gücə malikdir”, - deyə nazir əlavə edib.

Mütəxəssislər hələlik mübadilə üsulunu məqbul sayırlar. Dənizin dibi ilə çəkiləcək yeni kəmər Azərbaycan ərazisində Cənub Qaz Dəhlizinə inteqrasiya ediləcək.

## Cənub Qaz Dəhlizinin genişləndirilməsi gündəmdə

Azərbaycanın qaz ixracını artırmağı hədəfləməsi, həmçinin Türkmənistan qazının respublikamız üzərindən Avropaya ötürülməsi məsələsinin gündəmə gəlməsi Cənub Qaz Dəhlizinin günişləndirilməsini qaçılmaz zərurətə çevirib. Bundan ötrü müvafiq layihələrin icrası təmin edilməlidir.

Hazırda Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP-ın illik ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. Dəhlizin Avropa hissəsi adlandırılan TAP-ın isə illik ötürücülük imkanları 10 milyard kubmetrdir. Genişləndirmə layihələri həyata keçirildikdən sonra bu göstəricilər müvafiq olaraq 32 və 20 milyard kubmetrə çatdırılacaq. Azərbaycan mənbə və investor ölkə olaraq yeni sərmayə layihələrinə qoşulmağa hazırdır. Həmçinin bu layihəni Avropa Komissiyası da dəstəkləyir. Beləliklə, “xeyirli olsun” demək qalır.

***Mübariz FEYİZLİ***

# Neokolonializmlə mübarizənin önündə...

## Azərbaycan Fransanın müstəmləkəçi siyasətindən əziyyət çəkən xalqları hər zaman dəstəkləyəcək

Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlamaqda davam edir. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir.




## Ölkəmizin prinsipial mövqeyi

Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının ötən il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş bu tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib. Tədbirdə XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrinin nümayəndələri ədalət və azadlıq uğrunda apardıqları mübarizədə öz həmrəylik şəbəkələrini strukturlaşdırmaq məqsədilə Bakı Təşəbbüs Qrupunun yaradılması barədə razılığa gəldilər.

Qeyd edilməlidir ki, beynəlxalq platformalarda fəal iştirakı ilə seçilən Azərbaycanın Qoşulmama Hərəkatı müstəvisindəki fəaliyyəti olduqca uğurludur. Ölkəmizin qurumun prinsiplərinə sadiqlik nümayiş etdirməsi, daim onun ideyalarının təşviqinə çalışması, ehtiyac yarandığı təqdirdə ayrı-ayrı üzv dövlətləri dəstəkləməsi, qurumun fəaliyyətinə digər sanballı töhfələr verməsi QH-də Azərbaycana böyük etimad və nüfuz qazandırıb. Azərbaycan sülhü tərənnüm edən bir ölkə kimi müstəmləkəçilikdən azad olmaq uğrunda mübarizəni həmişə dəstəkləyib, bu istiqamətdə bütün dəstəyini əsirgəməyib, Qoşulmama Hərəkatının sədri qismində müstəmləkəçiliyə qarşı mübarizədə qlobal platforma kimi yeni müstəmləkəçi və neokolonial təcrübələrə qarşı mübarizədə öz prinsipial mövqeyini ortaya qoyub.




## Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi...

İyulun 20-də Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda çıxışı zamanı Prezident İlham Əliyev bildirib ki, biz Qoşulmama Hərəkatına sədrliyimizə başlayandan bu məsələ ilə yaxından məşğul olmağa çalışdıq: “Çünki Qoşulmama Hərəkatının bir çox üzvü keçmişdə kolonializmin qurbanı olmuşdur. Milyonlarla insan bunun qurbanı olmuşdur və bəzi ölkələr hələ də bundan əziyyət çəkir. Məsələn, Qəmər adaları, Mayot adası. Hələ də onlar kolonial idarəçilik altındadır. Biz bu ölkələrə kömək etmək istəyirik ki, keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər. Təəssüflər olsun ki, Fransa hökuməti yenə də mediadan istifadə edərək bizi ittiham edir ki, guya biz onların daxili işlərinə qarışırıq. Ancaq bu, qətiyyən belə deyil. Biz bunu Avropa İttifaqında, BMT-də anti-Azərbaycan mövqeyi ilə əlaqələndiririk. Onlar Azərbaycana qarşı soyuq müharibəyə başlayıblar. Biz bunu ona görə edirik və əminik ki, Fransanın etdikləri iyrəncdir, qəbuledilməzdir və buna son qoyulmalıdır”.

Kolonializm siyasətinin fəsadlarını müxtəlif aspektlərdən dəyərləndirmək mümkündür. Mənfi nəticələr yalnız asılı ölkələrin suverenliyinin məhdudlaşmasında, yeraltı və yerüstü sərvətlərinin talanmasında müşahidə edilmir. Fundamental insan hüquqlarının tapdanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr, Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı bu ölkənin qul siyasətinin qurbanı olub.

## Prezident İlham Əliyev: “Biz sizin yanınızda olacağıq”

Ölkəmizin müstəmləkəçiliyə qarşı barışmaz münasibəti bundan sonra da birmənalı olaraq davam edəcək. Şuşa Forumunda Prezident İlham Əliyev BMT-də Fransa Polineziyasının nümayəndəsi Karlayl Korbinin sualını cavablandırarkən deyib ki, Azərbaycan kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcək: “Biz sizi hər zaman dəstəkləyəcəyik. Əlimizdən gələni edəcəyik ki, siz və sizin kimi milyonlarla insan öz torpağında azad yaşaya bilsin. Siz öz gələcəyinizi planlaşdırmalısınız. Siz öz irsinizi və ləyaqətinizi, dilinizi qorumalısınız, hansı ki, bu gün sizi ondan məhrum etməyə çalışırlar. Biz sizin yanınızda olacağıq”.

Bir sözlə, neokolonializm siyasəti həyata keçirən Fransa kimi ölkələr uzun illərdir beynəlxalq hüququn hamılıqla qəbul edilmiş ümumbəşəri prinsiplərinə hörmətsizlik nümayiş etdirərək insan hüquqlarını kobud şəkildə pozmaqda, xalqlar arasında barışın əldə olunmasına, sülh və əmin-amanlıq mühitinin yaranmasına mane olmaqda davam edir. BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş və mütərəqqi müddəaların əhəmiyyətinə görə hələ də təməl sənədi hesab olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi irqindən, cinsindən, dilindən, dinindən, mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, bütün insanların bərabərliyinin təminini özündə ehtiva edir. Ümumbəşəri xarakterə malik olan həmin sənədin 4-cü maddəsinə əsasən heç kəs kölə və ya asılı vəziyyətdə saxlanıla bilməz. Amma müasir dövrdə hələ də dünyada müstəmləkə siyasəti ilə məşğul olan ölkələrin mövcud olması təəssüf doğurur.

Göründüyü kimi, ölkəmiz Fransanın müstəmləkəçi siyasətinə qarşı mübarizə aparan xalqların yanındadır və onlara dəstək verir. Qeyd edək ki, Fransa müstəmləkəçiliyinə qarşı yaradılan Bakı Təşəbbüs Qrupu qısa zaman kəsiyində mühüm işləri ilə seçilib. Ötən dövrdə hətta BMT müstəvisində bir sıra sənədləri yayan, Fransanın neokolonialist simasını ifşa edən Qrupun təşkilatçılığı ilə həm ölkəmizdə, həm də xaricdə bir sıra tədbirlər keçirilir. Bu istiqamətdəki tədbirlər bundan sonra da davam etdiriləcək.

***Nardar BAYRAMLI***

*N.BAYRAMLI*

# II Şuşa Qlobal Media Forumu dünya mətbuatının diqqətində

Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər, dünyanın müxtəlif ölkələrində jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar dünya mediasının diqqət mərkəzində olub.

Dünyanın nüfuzlu nəşrlərindən olan “Reuters” və “Politico” Prezident İlham Əliyevin Forumdakı çıxışında Fransanın müstəmləkə altında saxladığı ərazilərə bağlı fikirlərə geniş yer verib. Xəbərlərdə vurğulanıb ki, Prezident İlham Əliyev kolonializm-




dən əziyyət çəkən bütün xalqları dəstəkləməyə davam edəcəyini, Qəmər adaları, Mayot adası kimi ərazilərin hələ də kolonial idarəçilik altında olduqlarını deyib. Yazılarda dövlətimizin başçısının “Azərbaycan bu ölkələrə kömək etmək istəyir ki, onlar keçmişin bu iyrənc qalığından özlərini azad edə bilsinlər”,




fikri də oxuculara çatdırılıb.

Dövlətimizin başçısının fikirləri Türkiyənin aparıcı media orqanları tərəfindən də geniş işıqlandırılıb. “TRT Haber”, “Akit”, “Star”, “Aydınlık” portalları yazıb ki, Prezident İlham Əliyev Ersin Tatarın Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Şuşa Zirvə görüşündə iştirakının Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyinin tanınmasına doğru atılan önəmli bir addım olduğunu bildirib. Deyib ki, biz hər zaman kiprli qardaşlarımızla birlikdə olacağıq. “Anadolu Agentliyi”, “Haberler” saytı isə Azərbaycan Prezidentinin İsrail-Fələstin münaqişəsi ilə bağlı fikirlərinə diqqət çəkib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı Yaxın Şərqdə sülhün təmin edilməsi baxımından iki dövləti həll yolunun yeganə çıxış yolu olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, Fələstin dövlət qurmalı və Şərqi Qüds onun paytaxtı olmalıdır.

“Akşam” portalı, “TRT Avaz” kanalının saytı isə dövlətimizin başçısının “Türk Dövlətləri Təşkilatını dünya miqyasında güc mərkəzinə çevirməliyik” fikrini oxucuların diqqətinə çatdırıb. Qardaş ölkənin digər mətbuat orqanları da Azərbaycan Prezidentinin fikirlərini geniş oxucu kütləsinə təqdim edib.

Almaniyanın “Berliner-zeitung” nəşrində yayımlanan məqalədə Prezident İlham Əliyevin Forumun açılışında COP29-da Azərbaycanın prioritetləri barədə qısa məlumat verdikdən sonra iştirakçıların suallarını cavablandırdığı qeyd olunub. Bildirilib ki, Azərbaycanın COP29 təşkilatçılarının diqqəti formatın səmərəliliyini artırmağa yönəlib. Pakistanın “Associated Press” nəşri isə yazır ki, Forumdakı çıxışında Azərbaycan Prezidenti İlham Əliyev Pakistan mediasının daha geniş əməkdaşlığa kömək etmək və dezinformasiyaya qarşı mübarizə aparmaq üçün birgə media təşəbbüsünə zəmin hazırlayan dəstəyini yüksək qiymətləndirib.

İtaliyanın media orqanları da Azərbaycan Prezidentinin Şuşa Forumunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlərə geniş yer ayırıb. Ölkənin “Color News”, “Agenzia Nova”, “Avia-pro”, “MarketScreener” kimi xəbər portallarında yayımlanan materiallarda Azərbaycan Prezidentinin müxtəlif ölkələrdən jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar diqqət mərkəzində saxlanılıb. Yazılarda Azərbaycanla Ermənistan arasında sülh prosesinə dair Prezident İlham Əliyevin səsləndirdiyi fikirlərdən sitatlar da gətirilib. Bundan başqa, materiallarda Azərbaycan Prezidentinin ölkəmizin Fransa müstəmləkə ərazilərinə öz müstəqilliyini təmin etməyə kömək edəcəyini bildirdiyi qeyd olunub.

Rusiya mediası da Azərbaycan Prezidentinin Forumdakı fikirlərini diqqət mərkəzində saxlayıb. TASS, “İnterfax” agentlikləri, “Vestikavkaza”, “Aif”, “Ren.tv”, “News.ru” və digər mətbu orqanlarında dərc olunan informasiyalarda dövlətimizin başçısının müxtəlif mövzularla bağlı fikirləri qeyd olunub. TASS agentliyi dövlətimizin başçısının Rusiya Prezidenti ilə görüşləri, həmçinin ABŞ-da keçiriləcək prezident seçkilərinə dair fikirlərini də oxucularına çatdırıb.

“İnterfax” isə yazır ki, Prezident İlham Əliyev Rusiya ilə münasibətlərə dair fikirlərini belə ifadə edib: “İkitərəfli münasibətlərdə həll oluna bilməyən məsələ mövcud deyil və uzun müddətdir ki, belədir. Düşünürəm ki, hətta müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamədən əvvəl də belə idi. Prinsip etibarilə biz bütün məsələləri qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və xalqlarımızın münasibətlərinin çoxəsrlik tarixi nəzərə alınmaqla nizamlamışıq”.

“News.ru” portalı isə yazır ki, Azərbaycan dövlət başçısı Ermənistanın baş naziri Nikol Paşinyanın Britaniyada Cənubi Qafqazda böhranın həlli üzrə danışıqlardan imtina etməsinin sülh sazişinin imzalanmasının mümkünlüyünə zərbə vurduğunu bildirib.

Ukraynanın “RBK-Ukrayna”, UNIAN, “Yevropeyskaya Pravda”, “UKR.net”,




“ZN.ua”, “Uanews.ua” və digər informasiya agentlikləri, xəbər portallarında dərc olunan məqalələrdə dövlətimizin başçısının Azərbaycanın Avropanın enerji, təbii qaz təchizatındakı rolu, kolonializmdən əziyyət çəkən bütün xalqları dəstəkləyəcəyinə dair fikirləri yer alıb.

Ərəb mətbuatı da Şuşa Forumu barədə




məlumatları geniş işıqlandırıb. Misirin “Mena” xəbər agentliyinin, “akhbarelyom”, “amanataljouf” portallarının yaydıqları materiallarda Prezident İlham Əliyev iqlim dəyişikliyi nəticəsində yaranan fəsadlara qarşı mübarizə yolları ilə bağlı məsələlərdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin mövqelərində etimad boşluğunu azaltmaq üçün ölkəsinin səylərini diqqətə çatdırdığı vurğulanıb.

Birləşmiş Ərəb Əmirliklərinin “WAM” agentliyi də Şuşa Forumuna yer ayırıb. Qeyd olunub ki, forumda inkişafa və qlobal sabitliyə ən mühüm təhlükələrdən biri olan yalan məlumatların müasir informasiya mühitində sürətlə yayılması araşdırılır, müxtəlif media orqanlarında texnologiyanın təqdim etdiyi çoxsaylı imkanlar, davamlı artım nəzərdən keçirilir, informasiya kanallarında və düzgün ictimai məlumat üçün sistemlərin formalaşdırılması ilə bağlı yeni yanaşmalara, alətlərə və mexanizmlərə ehtiyacla bağlı müzakirələr aparılıb.

Qırğızıstanın “turktoday.info” informasiya agentliyi də Qlobal Media Forumundan yazıb. Agentlik Azərbaycanın dövlət başçısının Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Prezidenti Ersin Tatarın bu yaxınlarda Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakı ilə bağlı fikirlərinə xüsusi diqqət çəkib. Azərbaycan Prezidentinin Kipr türklərinə dəstək bəyanatının Türkiyə Silahlı Qüvvələrinin Kiprdə sülhün təmin edilməsi üzrə əməliyyatının başlanmasının 50-ci ildönümündə səsləndirildiyi vurğulanıb.




Şuşa Forumu Gürcüstan portalları tərəfindən də geniş işıqlandırılıb. Bu ölkənin “interpress.ge”, “aktual.ge”, “realnews.ge” informasiya portalları, “1tv.ge” televiziya kanalı Azərbaycan Prezidentinin dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistlərin suallarını cavablandırdığını qeyd edib. Xəbərlərdə dövlətimizin başçısının xüsusilə Cənubi Qafqaz regionunun inkişafı, sülh prosesi, Azərbaycanla bağlı həqiqətlərin düzgün, qərəzsiz işıqlandırılmasının vacibliyi barədə fikirləri əksini tapıb.

Rumıniyanın “Gandul”, Bolqarıstanın “Episentr”, “Seqa” və digər nəşrləri də Prezident İlham Əliyevin Azərbaycanın Qlobal Şimal ilə Qlobal Cənub arasında körpülər qurmasını, Qoşulmama Hərəkatına sədrliyi, eyni zamanda, ölkəmizin ABŞ-la münasibətlərinə dair fikirlərini geniş oxucu kütləsinə təqdim ediblər. Yazılarda Azərbaycan-Fransa münasibətləri də təhlil olunub.

Özbəkistanın milli xəbər agentliyində (UZA) dərc olunan “Dünya mediası Azərbaycanda dezinformasiyaya qarşı mübarizə məsələlərini müzakirə edir” sərlövhəli materialda Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda 50-dən çox ölkədən media nümayəndələrinin iştirak etdikləri bildirilib.

“Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər”. Dövlətimizin başçısının bu fikirləri isə Qazaxıstanın “Kazinform” agentliyində Şuşa Forumu ilə bağlı dərc olunan məqalədə yer alıb. Yazıda Prezident İlham Əliyevin Azərbaycanın Qlobal Şimal ilə Qlobal Cənub arasında körpülər qurması, Qoşulmama Hərəkatına sədrliyi, eyni zamanda, ölkəmizin ABŞ-la münasibətlərinə dair fikirlər geniş oxucu kütləsinə təqdim olunub.

Bundan əlavə, Avstriyanın “ORF”, Səudiyyə Ərəbistanının “Argaam”, Yunanıstanın “Power Game”, Makedoniyanın “MİA”, Polşanın “GEOPOLITYKA.ORG” informasiya portalları Azərbaycan Prezidentinin Rusiya Qazının Ukrayna ərazisi ilə Avropaya çatdırılması imkanlarına dair fikirlərinə xüsusi diqqət ayırıb.

Azərbaycan Prezidenti İlham Əliyevin “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda 2-ci Şuşa Qlobal Media Forumundakı çıxışı zamanı səsləndirdiyi fikirlər, beynəlxalq ekspert və jurnalistlərin sualları ilə bağlı şərhləri ABŞ mediasında da işıqlandırılıb. Ölkənin nüfuzlu “Bloomberg” nəşri ölkə başçısının Rusiyanın Ukrayna ərazisindən Avropaya qaz nəqlini 2025-ci ildə dayandıracağı və Azərbaycan qazının Avropaya çatdırılması ilə bağlı fikirləri barədə yazıb. Yazıda da qeyd olunduğu kimi, Prezident İlham Əliyev bildirib ki, Ukrayna və Avropa İttifaqı bu müqavilənin uzadılma-




sında yardımçı olmaq üçün Azərbaycana müraciət edib. Dövlət başçısının sözlərinə görə, hər iki tərəf bunda maraqlıdır. Çünki Ukraynanın özünün bu qaza ehtiyacı var. Materialda dövlət başçısının bu mövzuda fikirlərinə geniş yer verilib.

Həmçinin Prezident İlham Əliyevin Fransanın müstəmləkə altında saxladığı ərazilərlə bağlı fikirləri də ABŞ mediasında geniş dərc olunub. “Voice of America”, “Gazette”, “US News”, “Denver Gazette” kimi nəşrlərdə dərc olunmuş yazılarda Prezident İlham Əliyevin Fransanın Azərbaycanın daxili işlərinə, Ermənistanla münasibətlərinə müdaxilə etməkdə ittiham etməsi vurğulanıb. Sözügedən saytlarda həmçinin Prezident İlham Əliyevin Fransanın hələ də müstəmləkə altında saxladığı ərazilər və Azərbaycanın keçmişin bu iyrənc qalığından özlərini azad edə bilmələri üçün onlara kömək edəcəyinə dair fikirləri yer alıb.

*Nardar BAYRAMLI*

# Avropa Sülh Fondu sülhə qarşı...

## Ermənistana hərbi yardımın ayrılması regionda gərginliyin artmasına xidmət edir

Hazırda Cənubi Qafqazda sülhün təmin olunması məqsədilə bir sıra beynəlxalq platformalar çərçivəsində müzakirələr aparılır. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən beynəlxalq təşəbbüsləri dəstəkləyir. Lakin bu təşəbbüslər birtərəfli olmamalı, beynəlxalq hüquq normalarına və ədalət prinsiplərinə əsaslanmalıdır.

Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçilik edən beynəlxalq aktorlardan biri də Avropa İttifaqıdır. Belə ki, İkinci Qarabağ müharibəsi bitdikdən sonra Cənubi Qafqazda sülhün təmin olunması üçün Avropa İttifaqı müəyyən təşəbbüslərlə çıxış etdi. Təşkilatın prezidenti Şarl Mişelin vasitəçiliyi ilə 2021-ci ilin dekabr ayında Brüsseldə Azərbaycan və Ermənistan liderlərinin ilk görüşü keçirildi. Bundan sonra, Brüssel formatı çərçivəsində liderlərin bir neçə görüşü baş tutub. Lakin ötən ilin sentyabr ayında ordumuzun Qarabağda həyata keçirdiyi lokal antiterror tədbirlərindən sonra Avropa İttifaqının mövqeyində ədalətsiz yanaşma özünü göstərdi. Əslində, bununla Aİ özünün gerçək simasını ortaya qoydu. Antiterror tədbirlərinə qarşı çıxan Brüssel bununla da Qarabağdakı erməni separatçılarını dəstəkləmiş oldu.

## “Ortaq dəyərlərə əsaslanan” 10 milyon avro...

İyulun 22-də Avropa İttifaqı Şurasının Avropa Sülh Fondu çərçivəsində Ermənistan silahlı qüvvələrinə dəstək üçün 10 milyon avro məbləğində yardım ayırmaq barədə qərar qəbul etməsi də təşkilatın ermənipərəst mövqeyinin daha bir göstəricisidir. Aİ-nin rəsmi məlumatına görə, məqsəd Ermənistan silahlı qüvvələrinin maddi-texniki potensialını gücləndirmək, böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinin yaxşılaşdırılmasına töhfə vermək. Bildirilir ki, dəstək həmçinin “Ermənistanın dayanıqlığını artırmaq və ölkənin Aİ tərəfindən yerləşdirilən beynəlxalq hərbi missiya və əməliyyatlarda gələcəkdə mümkün iştirakı halında onun silahlı qüvvələrinin qarşılıqlı fəaliyyətini sürətləndirmək məqsədi daşıyır”. “Bu dəstək Aİ-nin Ermənistanla ortaq dəyərlərə əsaslanan və Ermənistanda və Cənubi Qafqazda sülh, sabitlik və rifahı təşviq etmək məqsədi daşıyan tərəfdaşlığı çərçivəsində veriləcək. Brüssel Aİ-Ermənistan Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişi əsasında Ermənistanla hərtərəfli siyasi və iqtisadi tərəfdaşlığını gücləndirməyə və əlaqələrimizi bütün ölçülərdə daha da gücləndirməyə sadiqdir. Bu, xarici siyasət və təhlükəsizlik siyasəti, o cümlədən ümumi təhlükəsizlik və müdafiə siyasəti (CSDP) sahəsində dialoqun və əməkdaşlığın intensivləşdirilməsini əhatə edir”, - deyə məlumatda qeyd olunub.

## Borrelin və Papikyanın “məmnunluğu”

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel isə Ermənistana ayrılan hərbi yardımı belə şərh edib: “Təhlükəsizlik Ermənistanla ikitərəfli münasibətlərimizin getdikcə daha vacib elementinə çevrilir. Avropa Sülh Fondunun bu tədbiri ölkənin dayanıqlığına daha da töhfə verəcək. Xarici işlər və təhlükəsizlik siyasəti üzrə dialoqumuzu daha da genişləndirməklə, eləcə də Ermənistanın gələcəkdə Aİ-nin rəhbərlik etdiyi missiya və əməliyyatlarda iştirakında qarşılıqlı marağımız var”.

Rəsmi İrəvan Aİ-nin bu hərbi yardımından “məmnun” görünür. Belə ki, Ermənistanın müdafiə naziri Suren Papikyan özünün “X” səhifəsində Ermənistana dəstək vermək qərarına görə Avropa İttifaqı və onun üzv dövlətlərinə təşəkkür edib: “Ermənistan və Aİ arasında qarşılıqlı etimada və ümumi maraqlara əsaslanan bu əməkdaşlıq Ermənistanın müdafiə qabiliyyətini gücləndirmək məqsədi daşıyır. Əminəm ki, bu, Aİ üzvü olan tərəfdaş ölkələrlə ikitərəfli və çoxtərəfli formatda daha sıx əməkdaşlığa yeni təkan verəcək”.

Ümumiyyətlə, burada açıq-aşkar məqsəd Ermənistanı silahlandırmaqdır ki, bu da regionda gərginliyin artmasına xidmət edir. Nəzərə alaq ki, Ermənistana yerləşdirilmiş Aİ Müşahidə Missiyası artıq hərbi missiyaya çevrilməkdədir. Aİ tərəfindən rəsmi İrəvana hərbi yardımın göstərilməsi də bu prosesin davamıdır.



44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməsindən sonra Azərbaycan dövləti Cənubi Qafqaz regionunun sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün təşəbbüslərlə çıxış edib. Ermənistanla sülh sazişi imzalanmaq təklifi də ilk olaraq Azərbaycan tərəfindən verilib. Məqsəd regionun sülh, sabitlik və əməkdaşlıq məkanına çevrilməsidir. Lakin müəyyən beynəlxalq dairələrin Ermənistana havadarlıq etməsi və onu silahlandırması sülh prosesinə zərbə vurur. Fransanın Ermənistana silah tədarükünün ardınca belə bir qərarın verilməsi Aİ-nin rəsmi Parisin təhriki ilə belə addım atdığını deməyə əsas verir.

## XİN: Ermənistanla yanaşı, Avropa İttifaqı da məsuliyyəti bölüşəcək

30 ilə yaxın müddətdə Ermənistan Azərbaycan ərazilərini işğal altında saxlayarkən, Avropa İttifaqı ölkəmizə nəinki hərbi dəstək, hətta siyasi dəstək vermədi, İrəvanı işğalçı kimi tanımadı. Belə olan halda Brüssel Ermənistanı silahlandırmaqla hansı mesajları vermək istəyir? Məsələyə Azərbaycanın Xarici İşlər Nazirliyi də reaksiya verib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Fransa tərəfindən Ermənistanın “Bastion” çoxməqsədli zirehli avtomobilləri və “Sezar” özüyeriyən artilleriya qurğuları ilə təchiz edilməsi istiqamətdə atılan addımlardan sonra Avropa İttifaqının Ermənistana hərbi yardım göndərməsi qərarı olduqca yanlış və təhlükəli addımdır, regionda gərginliyin artmasına xidmət edir. Avropa İttifaqı tərəfindən bu kimi fəaliyyətlər açıq şəkildə birtərəfli və qərəzli xarakter daşıyır, bölgədə “bölücü xətlər” yaratmaq siyasətinin təzahürüdür.

XİN-in mətbuat katibi qeyd edib ki, Ermənistana sözügedən hərbi yardım və belə yardımın gələcəkdə artmasına dair çağırışlar Azərbaycan Respublikasının ərazilərinin bir hissəsini 30 ilə yaxın dövrdə işğal altında saxlayan, hazırda ərazi bütövlüyümüzə qarşı iddialardan əl çəkməyən Ermənistanın hərbi potensialını gücləndirməyə və bölgədə destruktiv fəaliyyətinə xidmət edəcək. Azərbaycan Avropa İttifaqı Şurası tərəfindən verilmiş bu qərara qətiyyətlə etiraz edir, göstəriləcək yardım barədə şəffaf şəkildə məlumatın açıqlanacağını gözləyir. “Aİ bölgədə silahlanmaya və hərbiləşmə siyasətinə töhfə verən bu kimi addımlara son qoymalı, bölgədə sülh və əməkdaşlığın alternativinin olmadığını anlamalıdır. Əks təqdirdə, Ermənistanın sabitliyi pozan hər hansı mümkün təxribatına görə Avropa İttifaqı da məsuliyyəti bölüşəcək”,-deyə A.Hacızadə vurğulayıb.

Beləliklə, əgər Ermənistan Aİ-nin yardımından “ruhlanaraq” bölgədə hərbi gərginlik yaratmağa cəhd edərsə, bunun məsuliyyətini Avropa İttifaqı da daşıyacaq. Rəsmi Bakı bir daha prinsipial mövqeyini nümayiş etdirmiş oldu.

# Vətənpərvərlik!
## Ailədən başlayıb məktəbdə formalaşan tərbiyə...

**Azərbaycan gəncləri vətənpərvərdirlər. Bunu dəfələrlə öz əməlləri ilə sübut ediblər. Gənclər hərbi vətənpərvərliyi ilk öncə ailədə, valideynlərindən öyrənirlər. İnsanın ən ali və əzəli hisslərindən olan vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Məlumdur ki, bu gün müasir gənclərin vətənpərvər ruhda yetişməsi üçün təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət düşür. Lakin vətənpərvərlik təkcə Vətəni sevmək deyil. Vətənpərvərlik həm də Vətənin naminə çalışmaq, Vətəni qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir sevincinə, hər bir uğuruna sevinməkdir. Bu hiss insanda anadangəlmə olsa da, bütün digər hisslər kimi tərbiyəyə möhtacdır və tərbiyə yolu ilə daha da möhkəmlənir, artır.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti üzrə hazırlanmışdır**

### Vətənpərvərlik tərbiyəsinin əsası məktəblərdə qoyulur

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən təhsil üzrə ekspert Elşən Qafarov bildirib ki, vətənpərvərlik insanı səciyyələndirən ən mühüm keyfiyyətlərdən biri olduğundan onun böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, məktəbin ən vacib vəzifələrindən olmalıdır. Onun sözlərinə görə, müasir dövrdə təhsilin qarşısında qoyulmuş fəal vətəndaşlar yetişdirmək vəzifəsi də məhz sistemli, ardıcıl aparılan vətənpərvərlik tərbiyəsinin nəticəsində reallaşdırılır: "Məlumdur ki, təlim-tərbiyə işinin bütün sahələrində, istiqamətlərində olduğu kimi, vətənpərvərlik tərbiyəsinin də əsası məktəblərdə qoyulur və sonrakı təlim pillələrində daha da inkişaf etdirilir. Bu mənada, böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində orta məktəb müəllimlərinin üzərinə böyük məsuliyyət düşür. Onlar məktəbə qədəm qoyan körpə fidanların qəlbində elə ilk günlərdən Vətənə məhəbbət aşılamağa, onu güclü vətənpərvərlik hissinə çevirməyə çalışırlar".

### Azərbaycan gəncliyi öz sözünü dedi...

Ekspert qeyd edib ki, torpaqlarımız 30 ilə yaxın düşmənin işğalı altında qaldı, lakin Azərbaycan gəncliyi bununla barışmadı: "Dövlətimiz bu işğalın aradan qaldırılması üçün sülh yolunu illərlə təklif etdi, qan tökülməməsi üçün danışıqlar apardı. Amma qarşı tərəfin buna məhəl qoymaması, danışıqlara deyil, təxribatlara üstünlük verməsi fonunda 27 sentyabr 2020-ci il tarixində başlayan, 44 gün davam edən müharibədə Prezident İlham Əliyevin siyasi iradəsi, Ordumuzun rəşadəti ilə Azərbaycan gəncliyi öz sözünü dedi.



Cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı gənclərimizin igidliyi barədə illər, onilliklər boyu yazılsa da bitib-tükənən deyil. Xüsusilə, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın işğaldan azad edilməsi igidliyin, cəsurluğun ən pik nöqtəsi hesab olunur. Vəzir Orucovun, Mübariz İbrahimovun, general Polad Həşimovun qəhrəmanlıq, döyüş şücaətini nümunə göstərə bilərik. Bu qəhrəmanlıq hər bir Azərbaycan gəncinin qanında və irsindədir.

Ordu dövlətin müstəqiliyini, suverenliyini və ərazi bütövlüyünün qorunmasının təminatçısıdır. Ordunun tərkib hissəsinin böyük bir qismi gənclərdən ibarətdir. Müharibə dövründə Prezident İlham Əliyevin gənclərə müraciəti Azərbaycan gənclərinin üzərinə düşən məsuliyyət idi. Bu çağırışdan sonra gənclərin Vətənin müdafiəsinə könüllü olaraq qoşulması, xüsusilə ölkə xaricində yaşayan gənclərin də bu çağırışa səs verməsi tarixi qələbənin ilk qığılcımları oldu. 44 günlük müharibədə şücaət göstərərək Azərbaycanın işğal altında olan torpaqlarının işğaldan azad edilməsi Azərbaycan gəncliyinin vətənpərvər ruhda tərbiyə almasının əyani göstəricisi oldu".

### Təşkilatların rolu danılmazdır...

E.Qafarovun sözlərinə görə, hazırda gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin artırılmasında ölkədə fəaliyyət göstərən gənclər təşkilatlarının rolu danılmazdır: "Gənclər təşkilatı gənclər siyasətinin strateji bölməsidir ki, onun da əsası Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulub. Məhz bundan sonra gənclərlə bağlı həyata keçirilən bütün islahatların hər birində milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi hər zaman prioritet olub. Hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən bu siyasət gənclərin milli şüuru və vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır".

*Yeganə BAYRAMOVA*

# Minimum əmək haqqının artırılması...
## Vahid Tarif Cədvəli üzrə 800 min nəfərə yaxın şəxsin əməkhaqqına təsir göstərəcək

Azərbaycanda minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər hazırlanır. Bu, "Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı"nda öz əksini tapıb. Fəaliyyət planına əsasən, müvafiq dövlət qurumuna bu il noyabrın 1-dək minimum əməkhaqqının artırılması ilə bağlı təklifləri hazırlayaraq adiyyəti üzrə təqdim etmək tapşırılıb.

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əməkhaqlarının artırılması, işləyənlərin layiqli həyat səviyyəsinin təmin edilməsi məqsədilə minimum əməkhaqqının məbləğinin yüksəldilərək xalis minimum əməkhaqqı ölçüsünün xalis orta aylıq əməkhaqqının nisbətinin məqbul səviyyəsinə çatdırılması nəzərdə tutulub.

Beləliklə, yuxarıda qeyd edilən strateji dövlət sənədlərindən irəli gələn tapşırıqların icrası ilə bağlı müvafiq orqan tərəfindən hazırlanan yeni layihə noyabrda hökumətə təqdim edildikdən sonra minimum əmək haqqının artımına qərar veriləcək. Artımın ikirəqəmli həddə, təxminən 10-20 faiz civarında olacağı gözlənilir. Ölkədə inflyasiya ilə bağlı gözləntilər, sosial müdafiə sektorunda yığım imkanları və digər amillər nəzərə alınaraq artımın qeyd edilən rəqəmdən yuxarı olması da istisna deyil.

Beləliklə, yeni layihə əsasında növbəti ildən minimum əməkhaqqı artımlarına start veriləcək və ölkə üzrə əməkhaqlarının artımı da gerçəkləşmiş olacaq. Belə ki, minimum əməkhaqqının artırılması ölkə üzrə 700-800 min vətəndaşın əmək haqqının artmasına təsir göstərəcək. Ölkəmizdə dövlət büdcəsindən maliyyələşən bəzi sahələrdə əməyin ödənilməsi Vahid Tarif Cədvəli (VTC) əsasında aparılır. Bu sistemə görə, müxtəlif dərəcələrə sahib işçilərin əmək haqları minimum əmək haqlarının misilləri hesabına formalaşır. Bu baxımdan, minimum əməkhaqqının artırılması həmin işçilərin maaşlarına təsir edəcək. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin maaşlarının minimum məbləğləri VTC-dən irəli gələn tələblərə uyğunlaşdırılır və minimum əməkhaqının artımı VTC əsasında işləyən 800 min nəfərə şamil olunur. Bu o deməkdir ki, 2025-ci ildə minimium əməkhaqqının artmasından sonra ölkəmizdə 400 min dövlət, 400 min isə qeyri-dövlət sektorunda çalışan insanın da əməkhaqqı artmış olacaq. Minimum əməkhaqqının artımı əhalinin gəlirlərinə müsbət təsir etməklə, həm də əmək nazarında mühüm fayda verir, işçi qüvvəsinin rəqabət qabiliyyətinin, məhsuldarlığının, əməyin leqallaşdırılmasını təmin edir. Minimum əməkhaqqının növbəti artımından sonra bu rəqəm yaşayış minimumunu təxminən 30-40 faiz üstələmiş olacaq. Digər tərəfdən minimum əməkhaqqı artımı, ölkəmizdə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına olan nisbəti göstəricisinin də yüksəlməsinə imkan verəcəkdir. Qeyd edək ki, həmin nisbət 2018-ci ildəki 26,5 fazidən 2019-cu ildəki 33,3 fazię, 2020-ci ildəki 38 faziə yüksəlib. 2022-ci ildə isə 40 faiz səviyyəsinə yüksəlib. Bununla da bu nisbətin qabaqacıl beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində mühüm irəliləyiş olacaqdır.

Minimum əməkhaqqının artırılması beynəlxalq praktikada əsas etibarilə, inflyasiyanın səviyyəsindən asılı olaraq müəyyənləşdirilir. İnflyasiya artdığı halda həmin xərclərin artmasına da qərar verilir. Azərbaycan hökuməti bu sosial mexanizmə söykənərək 2023-cü ildə ikirəqəmli inflyasiya təzyiqlərinin əhalinin sosial həyatına təsirlərini nəzərə alaraq sosial paket icra etdi, maaş və pensiyalar, təqaüd və müvainətlər 20 faiz nisbətində artırıldı, eləcə də minimum əməkhaqqı isə 345 manata çatdırıldı. Ümumiyyətlə, minimum əməkhaqqı son 5 ildə 4 dəfə artırılaraq 130 manatdan 345 manata qaldırılıb. Bu artımlar yüz minlərlə insanın maaşlarının artımına səbəb olub. Eləcə də bu siyasət tədbirləri çərçivəsində yaşayış minimumu və ehtiyac meyarının həddi də artırılıb.

Ümumilikdə, ölkəmizin maliyyə imkanları yaxşılaşdıqca, gəlir resursları ilk növbədə, aztəmiantlı ailələrin və sosial baxımdan daha çox ehtiyacı olanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində addımlar atılır. Hər il büdcədə cari xərclərin əsas hissəsi də məhz sosial təyinatlı bölmələr üçün nəzərdə tutulur. Azərbaycan dövlət büdcəsi sosialyönümlü büdcədir və hər il xərclərin tərkibində sosial sahəyə ayrılan vəsaitlər prioritetlilik təşkil edir. Son 4 ildə qəbul olunaraq icra edilən sosial paketlər çərçivəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsini təmin edən mühüm sosial artımlar baş verib. Həmçinin, bu illər ərzində əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin məbləğləri artırılıb. Bu sosial siyasətə əsasən, növbəti ildə də pensiya və təqaüdlərin, ünvanlı sosial yardımların və s. sosial müavinətlərin artırılması nəzərdə tutulur. 2024-cü ildə "Sosial müavinətlər haqqında" qanuna edilən dəyişikliyə əsasən, bir sıra müavinətlər təsis edilməklə onların da maliyyələşməsi təmin ediləcək. Belə ki, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq, himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinətlər təsis edilib ki, bu da sosial sahədə yeni müavinət olmaqla əlavə sosial təminat tədbiri hesab edilə bilər.



2024-cü ilin büdcəsi də sosial xərclər baxımından əhəmiyyətli maliyyə sənədi kimi diqqəti cəlb edir və hazırda ümumi büdcə xərclərində sosialyönlümlü xərclərin çəkisi 45 faizdən yuxarıdır. Büdcədə sosial müdafiə və sosial təminat xərcləri 4,6 milyard manat, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi 6 milyard 949 milyon manat təşkil edir ki, cəmi sosial təminat xərclərinin məbləği 11,5 milyard manatdan çoxdur. Bu isə o deməkdir ki, sosial təminatla bağlı xərclərin məbləği büdcədə ən mühüm xərc maddəsi kimi mühüm yer tutur.

Hazırda mövcud sosial-iqtisadi inkişaf göstəriciləri və qarşıdakı aylar üzrə proqnozlar ölkəmizin gəlir və büdcə imkanlarının 2025-ci ildə artacağını deməyə əsas verir ki, bu da büdcədə sosial xərclərin artımı üçün əhəmiyyətli zəmin yaranması deməkdir. Bu imkanlar hesabına minimum əməkhaqqının əhəmiyyətli artımını təmin etmək mümkün olacaq. Qeyd edək ki, minimum əməkhaqqı alan vətəndaşlar daha çox sosial təminata ehtiyacı olanlardır ki, yeni ildən onların sosial təminatının daha da gücləndirilməsi yönündə sosial tədbirlərin görülməsi istisna deyil.

*ELBRUS*

# Britaniyada Mühafizəkarlar Partiyasının yeni liderinin adı nə vaxt açıqlanacaq?



Britaniyanın sabiq Baş naziri Rişi Sunak parlament seçkilərində məğlub olduqdan sonra Mühafizəkarlar Partiyasının lideri vəzifəsindən gedəcəyini açıqlamışdı.

AZƏRTAC xəbər verir ki, partiyanın yaydığı açıqlamada yeni liderin adının noyabrın 2-də məlum olacağı qeyd edilib. Bildirilib ki, Rişi Sunak həmin tarixədək sədrlik səlahiyyətlərini icra edəcək.

Namizədlərin irəli sürülməsi iyulun 24-də başlayacaq və iyulun 29-da başa çatacaq.

# BMT-nin Baş katibi ictimaiyyətə müraciət edib



BMT-nin Baş katibi Antonio Quterreş 30 İyul - Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Günü ilə bağlı müraciətində uşaqları insan alverindən qorumaq üçün daha çox səy göstərməyə çağırıb.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, BMT rəhbəri hökumətləri, vətəndaş cəmiyyətini və özəl sektoru, o cümlədən texnologiya şirkətlərini səylərini və əməkdaşlığı gücləndirməyə çağırıb.

"İnsan alveri cəmiyyətlərimizin ən həssas təbəqələrini hədəf alan dəhşətli cinayətdir. Builki Ümumdünya İnsan Alverinə Qarşı Mübarizə Günündə biz diqqətimizi ən həssas qruplara - uşaqlara yönəldirik"-, deyə Quterreş bildirib.

Onun sözlərinə görə, zorla əməyə, cinayət fəaliyyətinə məcbur edilən, satılan, "ağılsız zorakılığa" məruz qalan insan alveri qurbanlarının üçdəbirini uşaqlar təşkil edir. Baş katib bildirib ki, dünyada artan bərabərsizlik və qloballaşma ənənəvi qanunvericilik bazalarına meydan oxuyan, köləliyin yeni formalarını yaradan mürəkkəb insan alveri şəbəkələrini gücləndirib.

Onlayn platformaların uşaqları cinsi istismara və gender əsaslı zorakılığa daha da məruz qoyduğunu vurğulayan Antonio Quterreş bu cinayətlərin fiziki və psixoloji izlərinin yetkinlik yaşına qədər qaldığını, onların gələcəyini və əsas hüquqlarını əlindən aldığını bildirib.

"Uşaqlara qarşı həssas ədalət mexanizmləri də daxil olmaqla, müdafiə reaksiyalarını gücləndirməliyik, maarifləndiriciliyi artırmalı, müşayiət olunmayan uşaqlara dəstək verməliyik. Sağ qalanlara qayğı göstərib, həssas ailələrə kömək etməklə istismara qarşı mübarizə aparmalıyıq", - deyə Baş katib bildirib.

# Menendez ABŞ Senatından uzaqlaşdırılacaq?

ABŞ Senatının İntizam Komitəsi ermənipərəst senator Bob Menendezin Senatdan uzaqlaşdırılması ilə bağlı proses başladıb.

AZƏRTAC-ın məlumatına görə, komitə rüşvətlə bağlı məhkəmə qərarından sonra onun barəsində daxili təhqiqat aparılmasına dair yekdilliklə qərar qəbul edilib. Komitənin yaydığı məlumata görə, məhkəmənin qərarı Menendezin qanunları və Senatın qaydalarını pozmasını araşdırmaq üçün əsas yaradır.

Bildirilir ki, məhkəmə prosesi tam yekunlaşdıqdan sonra komitə intizam qaydalarının icrası üçün Senata məsələ ilə bağlı araşdırma və tövsiyələri əks etdirən hesabat təqdim edəcək. Səsvermədən sonra Demokratlar Partiyasından olan senator Bob Menendezin istefa verməsi ilə bağlı təzyiqlərin artacağı gözlənilir.



Qeyd edək ki, bir neçə gün əvvəl Nyu-York məhkəməsi amerikalı ermənipərəst senator Bob Menendezi rüşvətxorluq, maliyyə fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla ümumilikdə 16 maddə üzrə təqsirli bilib. Bu işdə senatorun həyat yoldaşı, erməni əsilli Nadine Menendez də ittiham olunub. Lakin onun məhkəməsi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

2006-cı ildən Nyu-Cersi ştatının senatoru olan Bob Menendez Konqresdə fəaliyyət göstərdiyi vaxtda federal agent kimi müttəhim kürsüsünə çıxarılan ilk senatordur. Bu, Menendezin Senatın üzvü olduğu təxminən 20 il ərzində onun korrupsiya ittihamı ilə üzləşdiyi ikinci federal cinayət işidir. Əvvəlki məhkəmə istintaqı hakim heyətinin hökm çıxara bilməməsi səbəbindən yalnız araşdırma ilə nəticələnib.

Senator bu ilin iyununda Nyu-Cersi ştatından müstəqil namizəd kimi seçkilərdə iştirak etmək barədə müraciət edib.

# MƏTBUAT TARİXİMİZDƏ "SOVET ERMƏNİSTANI" QƏZETİ

*əvvəli ötən saylarımızda*

Yazıçı Nurəddin Babayev ömrünün 50-ci müdrik çağını yaşayan qəzetə təbrikini belə təsvir edərək yazır: "Sovet Ermənistanı"nın səhifələrində çıxış etmək, belə bir şən gündə sizi və sizin sevimli qəzetinizi təbrik etmək mənim üçün xoşdur. Ona görə xoşdur ki, mən hər şeydən əvvəl qəzetçiyəm. Qəzet mənim üçün bir günlük ömrü olan adi kağız parçası deyildir. Mənim əqidəmə görə qəzet oxucu üçün tədbirli bir dost, tələbkar bir müəllim, mehriban bir müsahib, ağıllı bir məsləhətçidir. Elə bu səbəbdən də həmişə qəzetdən söz düşəndə mən onu bir insana bənzədirəm. Qəzet də insan kimi günlərin bir günündə doğulur, yaşayır, kamala dolur. Onun həqiqi və şirin sözü səni valeh edir, tənqidi və məzəmməti səni düşündürür!.

"Sovet Ermənistanı" qəzetinin Azərbaycanda yaşayan oxucuları ona adi bir respublika qəzeti kimi baxırlar. Ermənistanda yaşayan azərbaycanlı zəhmətkeşlərin iqtisadi və mədəni cəhbədəki bütün qələbələrindən "Sovet Ermənistanı" vasitəslə xəbər tuturuq. "Sovet Ermənistanı" qəzetinin 50 illik bayramı bizim də bayramımızdır. Məhz Azərbaycan jurnalistləri adından sevimli qəzetimizi, onun oxucularını təbrik edərkən demək istərdik ki, əlli yaş qəzet üçün kamillik dövrüdür. O, hər bir dövrdə, hər bir zamanda ən gözəl arzu və istəklərinin tərcümanı kimi yaşasın, var olsun".

İrəvanda yaşayıb-yaradan, ədəbi-mədəni mühitin aparıcı simalarından olan şair, ictimai xadim, vaxtilə qəzetdə ədəbi işçi kimi çalışan Hidayət "Sovet Ermənistanı" qəzetinin əlli illik yubileyinə ithaf etdiyi "Sənin ömrün" adlı şeirində bu mətbuat orqanının keçdiyi keşməkeşli yola poetik təsvir verməklə həm də bu barədə aydın təsəvvür yaradır.

***"Qızıl şəfəq" boylananda***
***üfüqlərdən yurdumuza,***
***Ulduz-ulduz doğulmusan.***
***"Rəncbər" dərdli,***
***"Zəngi" səsli***
***Bəstəkarım sən olmusan.***
***Sənin eşqin, sənin ömrün***
***daim gənclik yaşındadır!***
***Sənin ömrün***
***mübarizlər sırasında!***
***Sənin ömrün***
***bir az kədər, bir az qəzəb -***
***İllər ötür, dəyişirik nəsil-nəsil,***
***Sən qalırsan.***
***Bir nəslin yox, neçə nəslin***
***Zəhmətini, əməlini,***
***arzusunu, istəyini***
***Zaman-zaman yaşadırsan.***

Əslində, həmin dövrdə Hidayət "Rəncbər" dərdli, "Zəngi" səsli kimi dərin siyasi məna kəsb edən sözləri cəsarətlə şeirə gətirib, poetik ifadə vasitələrinə çevirmək tendensiyası hətta açıq mahiyyət kəsb edir. Həm də Hidayəti jurnalist kimi səciyyələndirən xüsusiyyətlərindən biri də bu idi ki, o, çoxlarının deyə bilmədiyi, görə bilmədiyi, deməyə cəsarəti çatmadığı fikirləri özünəməxsus müdriklik, mərdanəliklə ucadan deyə bilirdi. O, qəzetdə işlədiyi dövrdə hər zaman milli varlığımızın ən önəmli məsələlərini gündəmə gətirmişdir. Qəlbi xalqına xidmət amalı ilə döyünən gənc jurnalist "Sovet Ermənistanı" qəzetində əmək fəaliyyətinə başladığı gündən milli mətbuatımızın cəfakeşinə dönüb, onun keçdiyi yolu, onu yaradanların müqəddəs milli məramını öyrənməyə çalışmış, bu ənənələrdən bəhrələnərək onu jurnalistikada, mətbuatda yaşadırdı.



*Cəlal Allahverdiyev*
*filologiya üzrə*
*fəlsəfə doktoru, dosent*

Qəzetin 50 illik yubileyi münasibəti ilə 1953-cü illərdə Bakıya köçmüş və burada yaşayıb-yaradan bir qrup İrəvan ziyalıları 1946-1947-ci illərdə qəzetin məsul redaktoru olmuş biologiya elmləri doktoru, professor Rəhim Allahverdiyev, 1940-cı illərdə qəzetin ədəbi işçisi və məsul katibi müavini vəzifəsində çalışmış filologiya elmləri doktoru, professor Mirəli Seyidov, 1954-cü illərdə qəzetin redkasiyasında təbliğat və təşviqat şöbəsində ədəbi işçi vəzifəsində işləmiş filologiya elmləri doktoru, professor Teymur Əhmədov, 1960-cı illərdə qəzetin Basarkeçər üzrə bölgə müxbiri işləmiş tarix elmləri doktoru, professor Səfiyar Musayev və başqaları öz doğma "Sovet Ermənistanı" qəzetini 50 illik yubileyini böyük iftixar hissi ilə təbrik edib onun Qərbi Azərbaycanda Azərbaycan ictimai, ədəbi-mədəni mühitində oynadığı müstəsna rolunun əhəmiyyətini dəyərləndirərək yazırdılar: "Sevimli qəzetimiz, sən xalqımızın mənəvi həyatında, inkişafında iqtisadi və mədəni yüksəlişində çox böyük işlər görmüşsən. Sən Ermənistanda yaşayan azərbaycanlıların əmək qəhrəmanlıqlarının tərənnümçüsü, mənəvi tərəqqisinin bayraqdarı olmuşsan. Əziz qəzetimiz, biz əminik ki, sən bundan sonra da qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gələcəksən. Doğma "Sovet Ermənistanı"mız, biz yarım əsrlik yubileyin günündə Bakıdan salam göndərir, sənə, sənin əməkdaşlarına, bizim köhnə qələm dostlarımıza, müxbirlərə, qəzetin bütün oxucularına yeni müvəffəqiyyətlər və can sağlığı arzulayırıq".

Qəzetə belə yüksək ictimai dəyərin verilməsində sözsüz ki, onun fədakar və peşəkar kollektivinin də böyük zəhməti vardır. Ümumiyyətlə, hər nömrəsi ensiklopedik xarakter daşıyan Qərbi Azərbaycanda ana dilində yerli mərkəzi mətbuat orqanı olan "Sovet Ermənistanı" qəzetinin 50 illik yubileyi nəinki qəzet əməkdaşlarının, eyni zamanda, respublikada yaşayan bütün yaradıcı insanların bayramına çevrilmiş, mətbuat tariximizdə böyük əhəmiyyəti ilə yadda qalmışdır.

Qəzetin erməni şovinizmi əhatəsində basqı altında fəaliyyət göstərməsinə baxmayaraq, Qərbi Azərbaycanda milli mətbuatımızın şələçilərinin yetirmələri anadilli qəzetçilik ənənəsinin təcrübəsini, milli yaddaşın qorunması ilə bağlı səylərini "Sovet Ermənistanı" qəzetinin fəaliyyətində davam etdirmək üçün fədakarlıq göstərmişlər. Böyük inkişaf yolu keçən "Sovet Ermənistanı" qəzeti 1981-ci ilin dekabrında özünün 60 illik yubileyini qeyd edir. Qəzetin 30, ya 50-ci yubiley illəri ilə bağlı buraxılan xüsusi nömrələri rəngli və nəfis tərtibatı ilə seçildiyi halda, qəzetin 60 illik yubileyi ilə əlaqədar çıxan nömrəsində isə bu müşahidə edilmir.

Yubileylə əlaqədar olaraq qəzetin üç əməkdaşı jurnalistika və poliqrafiya sahəsindəki xidmətlərinə görə Sadıqov Nüsrət Məhərrəm oğlu (şöbə müdiri), Qəmbərova Züleyxa Əkbər qızı (makinaçı), Hüseynov Vidadi Həbib oğlu (linotipçi) fəxri fərmanla təltif edilmişdir.

"Sovet Ermənistanı" qəzetində uzun illər çalışan, istedadlı jurnalist, bu mətbu orqanın veteranlarından olan Lətif Hüseynov "Qəzetə bağlı ömür", Ermənistan Ali Sovetinin deputatı olmuş Qənirə Zeynalova "Dostluğun aynası", qəzetin oxucusu Mustafa Xəlilov "Xoş xəbərlər müjdəçisi", əmək veteranı Əsgər İbrahimovun "İlk günlərdən oxuyuram" adlı məqalələrində 60 il ərzində qəzetə verdikləri qiymətlə həyatımızın güzgüsü sayılan bu mətbu orqana olan istək və arzularını ifadə etmişlər.

Bu mənada, görkəmli akademik Budaq Budaqov "Sovet Ermənistanı" qəzeti ilə bağlı müsahibələrinin birində yazırdı: "Sovet Ermənistanı" ilə dostluğum məktəb yaşlarından başlayır. Poçtalyonun yoluna çıxdığım o günləri yaxşı xatırlayıram. Aspirant olduğum vaxtlarda onun səhifələrində müxtəlif səpkili yazılarım dərc olunub. "Sovet Ermənistanı" mənim ən çox sevdiyim mətbuat orqanlarındandır".

Bu qəzetin adı "Sovet Ermənistanı" olsa da, amalı xalqına, soydaşlarımıza sədaqətlə xidmət idi. Belə siqlətinə görə idi ki, bu qəzeti Qərbi Azərbaycanda hamı sevirdi. Bütün oxucular onu hər gün səbirsizliklə gözləyirdilər.

"Sovet Ermənistanı" qəzetində yazılar çoxşaxəli, müxtəlif məzmunlu idi. Azərbaycanda yaşayıb-yaradan şair və yazıçılar, elm, incəsənət, ictimai-siyasi xadimlər, rəhbər vəzifələrdə çalışan məmurlar da "Sovet Ermənistanı" qəzeti ilə əməkdaşlıq edirdilər. Qəzetdə dərc olunan şair və yazıçılardan Səməd Vurğun, Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Abdulla Şaiq, Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Gülhüseyn Hüseynoğlu, Mirvarid Dilbazi, Qasım Qasımzadə, Nəbi Xəzri, Rəsul Rza, Xəlil Rza, Nigar Rəfibəyli, İlyas Əfəndiyev, Cabir Novruz, Qabil, Mehdi Hüseyn, Zeynal Xəlil, Şəmşad Rza, Əliağa Kürçaylı, Hüseyn Razi, Müzəffər Nəsirli və onlarla başqalarının adlarını çəkə bilərik. Görkəmli ədəbiyyatşünas alimlərdən Kamal Talıbzadə, Mikayıl Rəfili, Həmid Araslı, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Əkbər İrəvanlı, Kövsər Tarverdiyeva, Pənah Xəlilov, Cəlal Abdullayev, Bağır Bağırov, İnayət Bektaşi və başqaları "Sovet Ermənistanı" qəzetində mövcud dövr ədəbiyyatın qarşısında duran problemlərdən, yazıçı və şairlərimizin yaradıcılığından bəhs edən dəyərli məqalələrlə çıxış etmişlər.

"Sovet Ermənistanı" qəzeti incəsənət məsələlərinə, mədəniyyət tədbirlərinin daim işıqlandırılmasına xüsusi diqqət yetirmişdir.

Müxtəlif illərdə mədəniyyət və incəsənət xadimlərindən Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Səid Rüstəmov, Şövkət Ələkbərova, Qulu Əsgərov, Sara Qədimova, Firəngiz Əhmədova, Zeynəb Xanlarova, Lütfiyar İmanov, Cövdət Hacıyev, Səyavuş Aslan, Nəsibə Zeynalova və başqalarının İrəvana etdikləri qastrol səfərləri qəzetin səhifələrində işıqlandırılmışdır. Ümumiyyətlə, Azərbaycan ziyalılarının görkəmli nümayəndələrinin, elm və incəsənət xadimlərinin əksəriyyətinin İrəvana etdikləri səfərləri və onların hər gəlişi və görüşlərini "Sovet Ermənistanı" qəzeti böyük şövqlə işıqlandırırdı. Azərbaycan ziyalılarının, sənət adamlarının hər gəlişi nəinki İrəvan ədəbi ictimaiyyətində, sadə azərbaycanlılarda belə böyük maraq doğurduğundan hər bir görüş böyük bir izdihama çevrilirdi. Müxtəlif illərdə İrəvanda səfərdə olmuş Azərbaycanın ədəbiyyatı, mədəniyyəti və incəsənətinin görkəmli nümayəndələrindən Məmməd Rahim, Novruz Gəncəli, Məmməd Aslan, Xəlil Rza, Cavad Cavadlı, Xalidə Hasilova, Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm, Aybəniz Vəkilova, Bəkir Nəbiyev, Cövdət Hacıyev, Lütfiyar İmanov, Sara Qədimova və onlarla başqaları "Sovet Ermənistanı" qəzeti redaksiyasının qonağı olmuş, maraqlı söhbətlər və müzakirələr aparmışdılar. Qəzet Azərbaycanda yaşayan ziyalılar arasında ünsiyyət yaranmasında, ədəbi-mədəni əlaqələrin daha da inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin təbliğində mühüm rol oynamışdır. Bir sözlə, "Sovet Ermənistanı" qəzeti Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların mədəniyyət mərkəzinə, ziyalıların baş qərargahına çevrilmişdir.

Bununla yanaşı, müxtəlif dövrlərdə ayrı-ayrı adlarla nəşr olunan "Sovet Ermənistanı" qəzeti Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların hüquqlarının qorunmasında, onların qarşılaşdıqları problemlərin həll edilməsində çox böyük rol oynamış, bir növ soydaşlarımızın ictimai-siyasi, ədəbi-mədəni mərkəzinə çevrilmişdir.

Bir sıra problemlərə, maneələrə baxmayaraq, müxtəlif illərdə "Sovet Ermənistanı" qəzetinə redaktor funksiyasını yerinə yetirmiş Cəfər Vəlibəyov (1939-1945); 1947; 1949-1959), Salman Rəhimov (1942), Rəhim Allahverdiyev (1945-1947), Rza Vəlibəyov (1948-1949), Həbib Həsənov (1960-1973), Məhərrəm Bayramov (1974-1981), Cahangir Əliyev (1982-1984), Zərbəli Qurbanov (1985-1988), İsrafil Məmmədovun (1988-1989), hər birinin özünəməxsus xidməti bu gün də böyük minnətdarlıqla yad edilir.

1989-cu ilin əvvəllərinə qədər fəaliyyət göstərən, erməni şovinizmi əhatəsində son dərəcə gərgin, mübariz tarixi bir yol keçmiş, Azərbaycan milli mətbuatı tarixində parlaq bir səhifə təşkil edən "Sovet Ermənistanı" qəzeti siyasi təbliğatçılıq funksiyasından daha çox Qərbi Azərbaycanda xalqımızın milli maraqlarının ifadə olunmasına uğurla xidmət göstərmişdir.

# Serbiya Prezidentindən xəbərdarlıq

## Qərb ölkələri Rusiya ilə birbaşa hərbi münaqişəyə fəal şəkildə hazırlaşır



Sonu görünməyən Rusiya-Ukrayna müharibəsi region üçün ağır nəticələr verməkdədir. Son zamanlar döyüşlərdə Rusiya ordusunun üstünlüyünün artması ABŞ və Avropa İttifaqı, eləcə də NATO-nun Ukraynaya hərbi yardımlarının da çoxalması ilə bağlı yeni təşəbbüsləri meydana çıxarmaqdadır. Müharibə başlayandan rəsmi Kiyevə milyardlarla dollar hərbi yardım edilsə də, ötən ilin sonlarından hərbi yardımın azalması Ukrayna ordusunun cəbhədə uğursuzluğuna səbəb olub. Ona görə də mövcud şəraitdə NATO Kiyevə əlavə yardımlar üçün yeni variantlar axtarır.

ABŞ Konqresində fikir ayrılığına son qoyulması, Kiyevə silah yardımı ilə bağlı problemin aradan qalxması silah tədarükünün artmasına səbəb olub. Amma bu, hələ də Rusiya-Ukrayna cəbhəsində Kiyevin xeyrinə dəyişikliyə gətirib çıxarmayıb. Bu yaxınlarda NATO-nun ABŞ-da keçirilən yubiley sammitində də Ukraynaya hərbi dəstəyin gücləndirilməsi diqqət mərkəzində olub. Sammitdə NATO müttəfiqlərinin Ukraynaya görünməmiş dəstək verdiyini bildirən Baş katib Yens Stoltenberq dəstəyin bəzi riskləri və xərcləri olduğunu da diqqətə çatdırıb. O, "Ancaq ən böyük risk Rusiyanın Ukraynada qalib gəlməsi olacaq. Biz buna icazə verə bilmərik. Bu müharibənin nəticəsi onilliklər ərzində qlobal təhlükəsizliyi formalaşdıracaq. İndi demokratiyanı qorumaq vaxtıdır və bunu Ukraynada etməliyik"- deyə vurğulayıb.




Bundan əlavə, NATO sammiti zamanı ABŞ, Almaniya, İtaliya, Niderland, Rumıniya və Ukrayna liderlərinin imzaladığı birgə bəyanata əsasən Kiyevə 5 əlavə hava hücumundan müdafiə sistemləri dəsti tədarük ediləcək. Yardım paketinə "Patriot" batareyaları, onları işə salmaq üçün komponentlər və SAMP-T sistemləri daxildir. Bəyanata əsasən, sözügedən hava hücumundan müdafiə sistemləri Ukraynanın şəhərlərini, sakinləri və hərbçiləri hava hücumundan qorumağa imkan verəcək. Həmçinin tərəflər yaxın aylarda Ukraynaya NASAMS, HAWK, IRIS T-SLM, IRIS T-SLS və "Gepard" sistemləri də daxil olmaqla, onlarla taktiki hava hücumundan müdafiə sistemi vermək niyyətindədirlər. "Biz, həmçinin NATO-nun Ukraynanın NATO-ya inteqrasiya olunmuş hava və raketdən müdafiə sistemini inkişaf etdirmək işinə dəstəyini alqışlayırıq. Bizim dünyaya mesajımız aydındır: Ukraynaya dəstəyimiz güclü və sarsılmazdır", - deyə bəyanatda qeyd olunub. NATO-nun Vaşinqton sammitində 2025-ci il üçün Ukraynaya 40 milyard dollar həcmində hərbi yardım göstərilməsi qərara alınıb.

Göründüyü kimi, Qərb Rusiyaya qarşı Ukraynanı daha çox silahlandırma siyasəti həyata keçirir. Bu da Qərblə Rusiyanı açıq qarşıdurmaya sövq edə bilər.

Artıq bəzi liderlər belə bir təhlükənin yaxınlaşması barədə xəbərdarlıq edirlər. Onlardan biri də Serbiyanın Prezidenti Aleksandr Vuçiçdir. Aleksandr Vuçiç bildirib ki, hazırda Qərb ölkələri Rusiya ilə birbaşa hərbi münaqişəyə fəal şəkildə hazırlaşır: "Qərb ölkələri hərbi əməliyyatları uzaqdan, başqasının vasitəsilə aparmaq istəyir. Onlar hazırda Rusiya ilə birbaşa münaqişəyə hazır deyillər. Hazır olacaqlarmı? Hesab edirəm ki, onlar artıq Rusiya ilə münaqişəyə daha sürətlə hazırlaşırlar".

Əlbəttə, Serbiya Prezidenti fikirlərində tamamilə haqlıdır. Çünki ABŞ, Fransa, Almaniya kimi ölkələr bu münaqişənin davam etməsinə maraqlı görünür. Qərb müharibəyə qarşı çıxan Şərqi Avropa ölkələrini təzyiq altında saxlayır. Yaxın zamanlarda NATO-nun Ukraynaya əlavə hərbi yardım paketini təsdiqləməyə hazırlaşması da bunun göstəricisidir. Bu paketə Ukraynaya təlim və təhlükəsizlik yardımının çatdırılmasının asanlaşdırılması üçün Almaniyanın Visbaden şəhərində NATO komandanlığının yaradılması da daxildir. Yeni yaradılacaq NATO komandanlığı ABŞ-ın indiyə kimi həyata keçirdiyi təhlükəsizlik yardımı və təlimlərin koordinasiyası ilə bağlı rəhbərlik missiyasını öz üzərinə götürəcək. Komandanlıqla yanaşı, NATO-nun şərq bölgələrində logistika qovşaqları olacaq.

Rəsmi Kiyevin NATO tərəfdaşlarından əsas istəklərindən biri onların verdiyi silahlarla Rusiya ərazisinin vurulmasına icazə verilməsidir, həm də Ukrayna səmasının bağlanmasıdır. Hava məkanın bağlanmasına, Ukrayna üzərində Rusiyaya məxsus raketlərin, hərbi təyyarələrin vurulmasına NATO razılıq vermir. Bununla belə, bəzi ölkələr Ukraynaya göndərdikləri silahlarla Rusiya ərazisini vurmağa icazə veriblər. Əgər bir müddət öncəyə qədər Qərbin aparıcı dövlətləri, eyni zamanda, NATO üzvü olan mərkəzi Avropa ölkələri onların silahları ilə Rusiyaya qarşı zərbələr endirməyə icazə vermirdilərsə, bu qadağa aradan qaldırılıb. Xatırladaq ki, hələ bir müddət öncə bir sıra ölkələr bunu NATO-Rusiya qarşıdurmasının məşqi olacağını söyləyirdilər. Bildirilirdi ki, hazırki məqamda NATO-nun Rusiyaya qarşı hərbi əməliyyatlara başlaması real deyil. Amma verilən son qərar bunun əksini göstərir. Məlumdur ki, Böyük Britaniya, Latviya, Litva, Niderland, Polşa, Finlandiya, Fransa, Çexiya, İsveç və Estoniya Ukraynaya öz silahları ilə Rusiya ərazisinə zərbələr endirməyə icazə verib. Bir müddət öncə verdiyi açıqlamada NATO-nun Baş katibi Yens Stoltenberq də Rusiyadakı silah obyektlərinin məhv edilməsi üçün Qərb silahlarının istifadəsinə qoyulan qadağanın aradan qaldırılmasına çağırmışdı. Xatırladaq ki, bir qrup ABŞ Konqresinin üzvü Ukraynanın Rusiya ərazisinə qarşı hücumlarda ABŞ silahlarından istifadə etməsinə icazə verilməsini istəmişdi. Qeyd etdiyimiz kimi, NATO-ya sonuncu üzv qəbul edilən İsveç də Kiyevə belə bir icazə verib.

Lakin NATO daxilində Ukraynanın silahlandırılmasının əleyhinə olan ölkələr də var. Məsələn, Macarıstan silahlanmanın deyil, sülh danışıqlarının tərəfdarı kimi çıxış edir. Əgər silahlandırılmadan daha çox sülh danışıqlarına üstünlük verilsəydi, müharibənin daha tez başa çatması mümkün olardı. Əslində, Kiyevin silahlandırılması haqqında qərarlar münaqişənin həllinə yox, əksinə münaqişənin Rusiya-Ukrayna müharibəsi kontekstindən çıxarıb geniş regiona yayılmasına gətirib çıxara bilər. Bu baxımdan, Serbiya Prezidenti Vuçiç haqlıdır. Çünki rəsmi Moskva NATO ölkələrinin belə addımlarına səssiz qalmayacaq. Bu barədə Rusiyanın rəhbər şəxsləri dəfələrlə xəbərdarlıq edib.

***N.BAYRAMLI***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Yayda istirahət...



## Yerli turizmdə qiymətlər niyə bahadır?

**Yay fəsli ilə əlaqədar bölgələrdə turizm sektorunda canlanma müşahidə olunur. Bu canlanma xüsusilə Qəbələ, Lənkəran, Şamaxı, Quba, İsmayıllı kimi bölgələrimizdədir. Bundan başqa, işğaldan azad olunmuş rayonlara üz tutanların da sayı az deyil.**

### Ötən il 4.6 milyard manat xərclənib

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, hotel və mehmanxana tipli obyektlər keçən il 488.82 milyon manat gəlir əldə ediblər. Bununla da hotel sənayesi illik müqayisədə gəlirlərini 38 faiz artırıb.

Azərbaycan Beynəlxalq Bankının “Rəqəmlərlə turizm: Azərbaycan turizm sektorunun statistik mənzərəsi” adlı hesabatına əsasən, 2023-cü ildə ölkədaxili turizmə 4.6 milyard manat xərclənib.

Dövlət Turizm Agentliyinin məlumatına görə, ölkədə ekoturizm, aqroturizm sahələrinin inkişafına xüsusi diqqət yetirilir: “Bu istiqamətdə daxili və xarici turistlərin aktivliyinin təmin edilməsi üçün müvafiq məhsullar və təbliğat işləri aparılır. Bu da öz bəhrəsini verməkdədir”.



### 110 manatdan 1200 manata qədər...

Lakin istirahətə gedənlərin sayında nə qədər çox canlanma varsa, yerli turizmlə bağlı qiymətlər də bir o qədər bahadır. İstər bölgələrdəki hotellərdə, istərsə də rayonlarda və Bakıətrafı bağ evlərində günlük kirayələrdə qiymətlər od tutub yanır. Belə ki, regiondan və hoteldən asılı olaraq, bu il qiymətlər, səhər yeməyi daxil, bir gecəlik 110 manatdan başlayır və 1200 manata qədər gedib çıxır.

Orta qiymətlər isə 250-300 manat arasındadır. Günlük kirayə evlər də şəraitindən asılı olaraq 70-200 manat arasında dəyişir. Bakıdakı bağ evlərində də qiymətlər dənizə yaxın olması, ya da həyətində hovuzunun olub-olmamasından asılı olaraq 100-350 manat arasında dəyişir. Bundan baha olanları da var...

### Qiymətlərin baha olmasının əsas səbəbi...

Yerli ekspertlərin fikrincə, turizm sahəsində qiymətlərin baha olmasının əsas səbəblərindən biri quru sərhədlərin hələ də bağlı qalmasıdır. Xatırladaq ki, 2020-ci ilin əvvəlində koronavirus pandemiyası ilə bağlı Azərbaycanın qonşu ölkələrlə quru sərhədində gediş-gəliş məhdudlaşdırılıb.

### Seçim imkanları az, qiymətlər bahadır...

İqtisadçı Fuad İbrahimovun “Yeni Azərbaycan”a açıqlamasına görə, quru sərhədlərin bağlı olması səbəbindən insanların seçim imkanı azalıb: “Seçim imkanı azaldıqca qiymətlər də artır. Uçuş biletləri baha olduğuna görə insanların xaricə çıxmağa imkanları azdır deyə, onlar daxili bazar imkanlarından istifadə etməyə məcbur olurlar. Buna görə daxili bazarda qiymətlər artır, çünki alternativlərin sayı azdır”.

### Sahibkarlar maksimum mənfəət əldə edirlər

Ekspertin fikrincə, ölkədə turizmin baha olmasının başqa səbəbi turizm infrastrukturunun azlığı ilə bağlıdır: “Mehmanxanaların sayı, mehmanxanalarda otaqların sayı, istirahət yerləri azdır. Bu da qiymətlərə müəyyən qədər təsir edir. Başqa bir faktor isə odur ki, sahibkarlar sui-istifadə edib çox vaxt qiymətləri qaldırırlar. Onlar bütün riskləri nəzərə alırlar və qiymətləri maksimum baha edirlər. Gələcəyi düşünərək maksimum mənfəət əldə etməyə çalışırlar”.

Keyfiyyətə gəlincə, iqtisadçı qeyd edib ki, istirahət mərkəzləri və hotellərdəki keyfiyyətdən, ümumilikdə, narazı qalanların faiz nisbəti çox böyük rəqəm təşkil etmir. Amma keyfiyyətlə bağlı da yetərincə suallar qalmaqdadır.

### Tələb artdıqca qiymət də qalxır...

Turizm üzrə ekspert Ramin Zamanov bildirib ki, bu il istirahət edənlərin əksəriyyəti yerli turistlər olsa da, xarici vətəndaşlar da üstünlük təşkil edir. Onun sözlərinə görə, turistlər adətən Bakıya yaxın olan ərazilərə üz tuturlar: “Turizm sektorunun inkişafı turistlərin zonalara axınından asılı olaraq dəyişir. Turistlər də adətən yaxın yerlərə üstünlük verirlər”.

Ekspert qiymət artımının müşahidə olunduğunu təsdiqləyib. Onun sözlərinə görə, tələb artdıqca qiymət də qalxır: “Yüksək qiymətlərdən müəyyən qədər yayınmaq üçün səyahətləri əvvəlcədən planlaşdırmaq, rezervasiyanı öncədən etmək daha əlverişlidir. Bu, yalnız ölkə daxilində deyil, xaricə uçuşlarda da qiymətlərə təsir edir. Səyahətin öncədən planlaşdırılması bir çox xərcləri azaldır. Bundan başqa, hər il regionlarda dincəlmək üçün yeni yerlər açılır. Bunların çox az qismi hotellərdir. Böyük əksəriyyəti kənd evləri, villalardır. Hətta sakinlərin özləri evlərini müəyyən standartlara uyğunlaşdıraraq turistlərə təklif edirlər. O zaman qiymətlər daha münasib olur. Biz buna da tələbatın olduğunu görürük. Çünki ailə ilə, qrup şəklində getdikdə oteldə 1 otaqda qalmaq olmur. Ona görə də evlərə üstünlük verirlər”.

*Yeganə BAYRAMOVA*

## “Nar” Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini bir araya toplayıb




“Nar” 22 iyul - Milli Mətbuat Günü münasibətilə media nümayəndələrini təbrik edib və onlar üçün dayanıqlılıq və iqlim dəyişikliyinə yönəlmiş maarifləndirici təlim proqramının keçirilməsini dəstəklədiyini bildirir. Bu təşəbbüs dayanıqlılıq və iqlim dəyişikliyi gündəmini effektiv şəkildə idarə edə biləcək peşəkar media nümayəndələrinin inkişafına “Nar”ın dəstəyini nümayiş etdirir.

Dayanıqlılıq və iqlim dəyişikliyi sahəsində ekspert xidmətləri təqdim edən “Sustainera Solutions” şirkətinin müxətəssislərinin keçdiyi təlim çərçivəsində dayanıqlılıq və iqlim dəyişikliyinin təşviqində medianın həlledici rolu, eko piarın vacibliyi və dayanıqlılıq kommunikasiyasında tendensiyaların rolu barədə önəmli aspektlər vurğulanıb.

“Nar”ın İctimaiyyətlə Əlaqələr və Korporativ Ünsiyyət departamentinin direktoru Hökümə Kərimova media əməkdaşlarını təbrik edib və təlim haqqında fikirlərini bölüşüb: “Nar” olaraq məqsədimiz jurnalistləri həyati vacib ekoloji məsələlərlə bağlı ictimaiyyəti məlumatlandırmaq və cəlb etmək təşəbbüslərində dəstəkləmək və bununla da daha yaşıl və daha dayanıqlı dünyaya töhfə verməkdir. Bu il ölkəmizin COP29 tədbirinə ev sahibliyi edəcəyi üçün biz hesab edirik ki, jurnalistlərin dayanıqlılıq və iqlim dəyişikliyi məsələləri ilə bağlı məlumat vermək üçün zəruri biliklərlə gücləndirilməsi çox önəmlidir”.

Mətbuat gününü qeyd edən jurnalistlər üçün dayanıqlılıq və iqlim dəyişikliyi üzrə təlimdən əlavə Fibonacci intellektual oyunu da təşkil edilib. 30 media orqanını təmsil edən jurnalistlər 6 komandada biliklərini yarışdırıblar. 1, 2 və 3-cü yeri tutan qalib komandalara müxtəlif dəyərli hədiyyələr təqdim edilib. Tədbir haqqında qısa videonu buradan izləyə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## *İdman*

### Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya 7 üzv seçilib

İyulun 22-də Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, seçkilər Azərbaycan İdman Akademiyasında 12 namizəd arasında təşkil edilib.

Gizli səsvermə yolu ilə 7 nəfər - Səbirə Abdullayeva (Azərbaycan Tennis Federasiyası), Fərhad Əliyev (Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası), Elnur Məmmədli (Azərbaycan Cüdo Federasiyası), Könül Mikayılova (Azərbaycan Stolüstü Tennis Federasiyası), Güldanə Dadaşova (Azərbaycan Gənclər Parlamenti İctimai Birliyi),




Ramin Həbibzadə (Dünya Azərbaycanlıları Gənclərin İctimai Birliyi ) və Aynurə Salmanlı (Gənclərin Maarifləndirilməsinə Dəstək İctimai Birliyi) İctimai Şuranın üzvü seçilib.

### Fərid Qayıbov: Azərbaycan idmançılarının Parisdə bizi layiqincə təmsil edəcəyinə inanıram

“Azərbaycanı Olimpiya Oyunlarının 15 idman növündə 48 idmançı təmsil edəcək”.

AZƏRTAC xəbər verir ki, bu sözləri gənclər və idman naziri Fərid Qayıbov “Paris-2024” Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan Olimpiya komandasının üzvləri üçün təşkil olunan yolasalma mərasimi zamanı jurnalistlərə deyib.



O, Fransa paytaxtında keçiriləcək yarışda Azərbaycan idmançılarına inandığını bildirib: “Ümid edirəm ki, onlar bizi layiqincə təmsil edəcəklər. Ən əsası, üzərlərindəki həyəcan hissini atmalıdırlar. Azərbaycan idmançıları üçün atletlər kəndində hər bir şərait yaradılıb. Sadəcə olaraq, azarkeşlərin dəstəyi önəmlidir. Bütün idmançılarıma uğurlar arzulayıram”.

Azərbaycan komandasının yarışdakı bayraqdarları cüdoçu Gültac Məmmədəliyeva və boksçu Məhəmməd Abdullayev olacaqlar.

Qeyd edək ki, “Paris-2024” Yay Olimpiya Oyunları iyulun 26-dan avqustun 11-dək keçiriləcək.

### AMADA Paris Olimpiadası ərəfəsində innovativ yanaşmalar tətbiq edir

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) “Paris-2024” Yay Olimpiya və Paralimpiya Oyunları ərəfəsində idmançılarımızın hüquqlarını qorumaq və məlumatlılığı əlçatan etmək üçün artıq innovativ yanaşmalar tətbiq edir.

AMADA-nın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, agentlik Parisdə yarışacaq idmançılar və onların köməkçi heyəti üçün rəqəmsal platformalar üzərindən yeni imkanlar açıb.

Olimpiya və Paralimpiya komandalarımızın üzvləri AMADA-nın “Teleqram” kanalı vasitəsilə dopinq nəzarəti prosesi, qadağan edilmiş siyahı, terapevtik istifadə üçün İstisna (TİI) və digər mövzular ilə bağlı ətraflı məlumat əldə edə bilərlər. Həmçinin yeni fəaliyyətə başlayan “paris2024.amada.az” saytına daxil olaraq, bütün suallara cavab tapmaq olar. Sayt iki - Azərbaycan və ingilis dillərində fəaliyyət göstərir.

İdmançılar və köməkçi heyət AMADA-nın +99450-218-82-06 nömrəsi vasitəsilə əlaqə saxlayaraq, habelə “Vatsap” üzərindən dopinq nəzarəti ilə bağlı bütün suallarına operativ və dolğun şəkildə cavab tapa biləcəklər.

Həmçinin AMADA tərəfindən “Paris-2024” Yay Olimpiya Oyunlarında iştirak edən idmançı və idmançı köməkçi heyəti üçün Olimpiadanın antidopinq qaydalarını özündə cəmləşdirən maarifləndirici videoçarx hazırlanıb. Həmin videoçarx ilə AMADA-nın sosial şəbəkə hesablarında və rəsmi saytında tanış olmaq mümkündür.

AMADA-nın icraçı direktoru Təhminə Tağızadə həyata keçirilən layihələrin təmiz idman dəyərlərinə hesablanmış növbəti addım olduğunu bildirib. Qeyd edib ki, agentlik olaraq idmançıların hüquqlarının qorunması və təmiz qələbələr ilə xalqımızı sevindirməsi AMADA üçün prioritet təşkil edir: “Dördilliyin zirvə yarışı zamanı əməkdaşlarımız hər bir müraciətə böyük diqqətlə yanaşacaq, idmançılarımızın üzləşə biləcəyi hər hansı antidopinq problemi ilə bağlı öz məsləhətlərini əsirgəməyəcəklər”.

Həyata keçirilən innovativ yanaşmaların başlıca məqsədinin Olimpiya və Paralimpiya komandalarımızın dəstəklənməsi olduğunu bildirən AMADA rəsmisi antidopinq sahəsində məlumatlandırmanın əlçatan olması və təmiz idman mühitinin formalaşdırılması istiqamətində fəaliyyətin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4362
Sifariş: 1650
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova